№15 (190) 25.12.2015 Qəzet 2008-ci il martın 15-dən çıxır

# REGION PRESS

İctimai qəzet “რეგიონ პრესი” საზოგადოებრივი გაზეთი www.amm.ge



***Azərbaycanlıların Mədəniyyət Mərkəzi Sizi 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il münasibətilə ürəkdən təbrik edir, möhkəm can sağlığı, xoş güzəran, ailə xoşbəxtliyi, dünyamıza isə onun başı üstündə dolaşan qara buludların qəlblərə hərarət bəxş edən Günəşimizin ilıq nəfəsli şəfəqləri ilə əvəz olunmasını və hər birimizin ocağına əmin-amanlıq, könül xoşluğu gətirməsini diləyir.***




## Gürcüstanın Baş naziri istefa verib

***Gürcüstanın Baş naziri İrakli Qaribaşvili tutduğu vəzifədən istefa verib.***



Baş nazir bunu dekabrın 23-də keçirdiyi brifinqdə bəyan edib.

İ.Qaribaşvili istefasının səbəbini və bundan sonra hansı vəzifədə çalışacağını açıqlamayıb. Bildirib ki, bundan sonra da Gürcüstan dövlətçiliyinə və xalqına xidmət edəcək.

Ölkənin siyasi ekspertlərinin sözlərinə görə, İ.Qaribaşvilinin istefası 2016-cı ildə Gürcüstanda keçiriləcək parlament seçkiləri ilə əlaqədardır. Belə ki, onun “Gürcü arzusu” Partiyasının seçki qərargahına rəhbərlik edəcəyi bildirilir. Lakin son anda onun Partiyanın sədri vəzifəsindən getdiyi də məlum olub.

Baş nazir vəzifəsini hələlik Gürcüstanın xarici işlər naziri Giorgi Kvirikaşvili icra edir. Bu gün Parlamentdə onun həmin vəzifəyə namizədliyi müzakirə olunur.

## Parlament 2016-cı il üçün Dövlət büdcəsini təsdiqləyib

Gürcüstan parlamenti 2016-cı il üçün Dövlət büdcəsini təsdiq edib. Büdcə layihəsinin lehinə 83, əleyhinə isə 11 nəfər deputat səs verib. Maliyyə naziri Nodar Xaduri demişdir ki, gələn ilin büdcəsi 10 milyard laridən çoxu təşkil edir və bu, tam olaraq əhalinin maraqlarına istiqamətləndirilib. Nazir 2012-ci il seçkilərinə qədər əhaliyə verilən vədlərin addım-addım yerinə yetirildiyini qeyd edib .





## «Turkvision-2015» yarışmasının qalibi məlum oldu

***«Turkvision-2015» yarışmasının qalibi Qırğızıstanı təmsil edən Jiydeş İdirisova oldu.***

İdirisova finalda 194 bal toplayaraq qalib titulunu qazandı.

İkinci və üçüncü yerləri Qazaxıstan və Türkiyə təmsilçiləri tutublar. Azərbaycanı təmsil edən Mehman Tağıyev "İstanbul" mahnısı ilə yeddinci olub.

Bildiririk ki, həmyerlilərimiz Şaban Məmmədov və Anar Əsgərov da bu musiqi yarışmasında iştirak ediblər.

## Azərbaycan prezidenti İlham Əliyev dünya azərbaycanlılarını təbrik etdi

**Dövlət başçısının müraciətində deyilir:**



“Əziz həmvətənlər! Hörmətli soydaşlar! Vətən təəssübkeşliyi, doğma yurda və milli-mənəvi dəyərlərə bağlılıq kimi nəcib hisslər aşılayan 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində sizi salamlayır, hər birinizə xoş arzu və diləklərimi çatdırıram.

Bütün soydaşlarımızın azərbaycançılıq ideologiyası ətrafında sıx birləşərək mütəşəkkil qüvvəyə çevrilməsi məsələsinə xüsusi diqqət yetirən ümummilli lider Heydər Əliyev bu sahədə tarixi qərarlar qəbul etmiş, xaricdə məskunlaşmış həmvətənlərimizin hüquqlarının qorunmasına, diaspor quruculuğunun geniş vüsət almasına yönələn əhəmiyyətli tədbirlər həyata keçirib. Aparılan məqsədyönlü siyasətin nəticəsi olaraq, bu gün diaspor təşkilatlarımız fəaliyyət göstərdikləri ölkələrdə Azərbaycan həqiqətlərinin təbliği, milli maraqlarımızın müdafiəsi və respublikamızın digər dövlətlərlə qarşılıqlı faydalı münasibətlərinin dərinləşməsi işinə öz töhfələrini verirlər.

Son dövrlər dünyanın müxtəlif guşələrində hərbi-siyasi münaqişələrin və iğtişaşların artmasına baxmayaraq, Azərbaycanda mövcud olan ictimai-siyasi sabitlik, hakimiyyət və xalq arasında etimad mühiti daha da möhkəmlənib.

Təəssüflə qeyd etməliyəm ki, Ermənistanın təcavüzkar siyasəti və qeyri-konstruktiv mövqeyi ucbatından hələ də həllini tapmayan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hamımızı narahat edən taleyüklü problem kimi qalır. Bu gün Azərbaycan Respublikası güclü iqtisadiyyata və torpaqlarımızı hər an işğalçılardan azad etməyə hazır olan qüdrətli orduya malikdir. Lakin biz yenidən qan tökülməsinin qarşısını almaq, regionda gərginliyi artırmamaq məqsədilə münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində dinc yolla ədalətli həllinə çalışırıq. Bu sahədə diaspor təşkilatlarımızın da üzərinə mühüm vəzifələr düşür. Azərbaycanın suverenliyinin qorunması və ərazi bütövlüyünün təmin edilməsinə öz həmrəyliyimiz və birgə fəaliyyətimizlə sanballı töhfə vermək bizim başlıca amalımız olmalıdır.

Sizi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibəti ilə səmimi-qəlbdən təbrik edir, hər birinizə xoşbəxtlik, firavanlıq və işlərinizdə uğurlar arzulayıram”.

**Dünya şöhrətli müğənnimiz Rəşid Behbudovun 100 illik yubileyi...**



İradə Kövrək (Sarıyeva)

Səh.5-də

**AZƏRRBAYCANLILARIN DOSTU**





Mirzə Məmmədoğlu

Səh.8-də

**Əyriqarda affirmasiyalarla yaşamaq**

*(introversiya)*



İbrahimxəlil

Səh.9-da

**Bir həyat hekayəsi....**



Mayquba Əliyeva

Səh.10-da

# “Yerli özünüidarəetmə - ən yaxşı təcrübə - 2015” mövzusunda konfrans

Tbilisidə “Yerli özünüidarəetmə - ən yaxşı təcrübə - 2015” mövzusunda konfrans keçirilmişdir. Tədbirdə baş nazir İrakli Qaribaşvili, Avropa İttifaqının Gürcüstandakı nümayəndəliyinin rəhbəri Yanoş Hermon, hökumətin, parlamentin üzvləri, ölkədə akkreditə olunmuş diplomatik korpus, yerli özünüidarəetmə orqanlarının nümayəndələri iştirak etmişlər.



Bələdiyyələr müxtəlif layihələri təqdim etmişlər. Marneuli bələdiyyəsi “Məktəbəqədər təhsil mərkəzinin açılması”, “Vahid Qafqaz festivalı” və “Müasir kitabxana binasının inşası” layihələri ilə iştirakçıları tanış etmişdir. Bu onları qane etmiş və üç ən yaxşı layihəyə görə Rayon İcra Hakimiyyətinin başçısı Merab Topçişvili “Yerli özünüidarəetmə - ən yaxşı təcrübə - 2015” diplomuna layiq görülmüşdür.

## Təbrik edirik!



Noyabrın 27-dən dekabrın 1-dək Türkiyənin İstanbul şəhərində “Dünya Qarapapaq Türkləri Birliyi”nin təşkilatçılığı ilə Dünya Qarapapaq Türklərinin I qurultayı keçirildi. Qurultayda 10 ölkədən 3 min nəfər nümayəndə iştirak etdi. Qurultaya Gürcüstandan da nümayəndə heyəti qatıldı.

Gürcüstanın Aşıqlar Birliyinin sədri Osman Əhmədoğlu səmərəli fəaliyyətinə görə “Türk dünyasına xidmət” ödülü ilə təltif olundu. O, Dünya Qarapapaqları Ağsaqqallar Məclisinə üzv seçildi və ona “bəy” titulu verildi.

Təbrik edirik!

**RegionPress**

# Pensiyalar artırılacaq

2016-cı ilin iyulundan Gürcüstanda pensiyalar 180 larini təşkil




edəcək. Bununla əlaqədar hökumətin növbəti iclasında bəyanat verilmişdir. Hökumət əvvəlcədən büdcənin sosial təmayüllü olacağını bəyan etmişdi və gələn ilin büdcəsi də belə olacaq. Bu vəsaitin pensiya və müəllimlərin baza maaşlarına, həmçinin yüksək dağlıq bölgələrin inkişafına və s. ayrılacağı qeyd olunmuşdur.

İclasda 2012-ci ildən pensiyaların təxminən 64 faiz artırıldığı vurğulanmışdır.

Pensiyanın yığım sistemi ilə təyin olunmasının və mərhələlərlə yeni sistemə keçirilməsinin vacibliyi də diqqətə çatdırılmışdır.

# Rusiya XİN Gürcüstanla vizasız rejimin tətbiq olunmasını istisna etmir

APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bu bəyanatla Rusiya Xarici İşlər Nazirliyi çıxış edib.

"Rusiya tərəfi iki ölkənin vətəndaşlarının əlaqələrinin sadələşdirilməsi istiqamətində addımlar atmağa niyyətlidir və qarşılıqlı əsasda vizasız rejimin tətbiq olunmasını istisna etmir", - deyə bəyanatda bildirilib.

Qeyd edək ki, hal-hazırda Rusiya vətəndaşları Gürcüstana vizasız səyahət edə bilirlər, lakin Gürcüstan vətəndaşları Rusiyaya viza ilə daxil olur.




Rusiya prezidenti Vladimir Putin dekabrın 17-də keçirdiyi böyük mətbuat konfransında Gürcüstan vətəndaşları üçün viza rejimini ləğv etməyə hazır olduğunu bildirib.

# Dünya müsəlmanları Məhəmməd Peyğəmbərin (s.ə.s.) mövludu gününü qeyd edirlər

***Qafqaz Müsəlmanları İdarəsində (QMİ) Mövlud ən-Nəbi – Məhəmməd Peyğəmbərin (s.ə.s.) mövludu günü qeyd edilib.***




Əvvəlcə Qurandan ayələr oxunub.

Şeyxülislam hacı Allahşükür Paşazadə bütün müsəlmanları Məhəmməd Peyğəmbərin (s.ə.s.) doğum günü münasibətilə təbrik edərək bildirib ki, islam ənənələrinə görə, bayram Ay təqviminin üçüncü ayına, islamda ən çox ehtiram bəslənilən Rabiul-əvvəl ayının 12-ci gününə təsadüf edir. İslam dininin banisi Məhəmməd Peyğəmbər (s.ə.s.) məhz bu ayda anadan olub və bu ayda vəfat edib.

Tədbir iştirakçılarına ümummilli lider Heydər Əliyevin, habelə ailəsi ilə birlikdə Prezident İlham Əliyevin müqəddəs Məkkə şəhərini ziyarət etmələrindən söz açan sənədli film, Heydər məscidinin açılışında Azərbaycan Prezidentinin nitqinin səsləndiyi kadrlar nümayiş etdirilib. Tədbirdə İranın Azərbaycandakı səfiri Möhsün Pakayin iştirak edib.

Şeyxülislam hacı Allahşükür Paşazadə hamını Dünya Azərbaycanlılarının Həmrəylik Günü, Milad və Yeni il bayramları münasibətilə təbrik edib.

Akademik Vasim Məmmədəliyev, İranın Azərbaycandakı səfirliyi yanında İran Mədəniyyət Mərkəzinin rəhbəri İbrahim İbrahimi, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini hacı Salman və başqa natiqlər Peyğəmbərimizin (s.ə.s.) böyük missiyasından və mənəvi örnəyindən, müsəlman ümmətinin sıx birləşməsində xidmətlərindən söz açıblar.

Sonra dualar oxunub, ehsan verilib.

# "Bakı-Tbilisi-Qars" dəmir yolunun Gürcüstan hissəsində yük qatarı sınaqdan keçirilib

"Bakı-Tbilisi-Qars" dəmiryolu magistralının tikintisi çərçivəsində, yolun Gürcüstan hissəsində yük qatarı sınaqdan keçirilib. Sınaq uğurla başa çatıb.

Bu barədə Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf Nazirliyinin məlumatında bildirilir.



Qatarın Axalkalaki-Kartsaxi hissəsində sınağı "Marabda-Kartsaxi Dəmir Yolu" MMC və"Azərbaycan Dəmir Yolları" QSC-nin Gürcüstan filialı tərəfindən təşkil olunub.

""Marabda-Kartsaxi dəmir yolu" MMC-nin nümayəndələri bunun layihənin uğurla başa çatdırılması istiqamətində daha bir addım olduğunu bəyan ediblər", - deyə nazirliyin məlumatında bildirilir.

"Bakı-Tbilisi-Qars" dəmir yolunun Gürcüstan hissəsinin inşası əməli olaraq başa çatıb. Layihə Gürcüstan ərazisində Marabda-Axalkalaki dəmir yolu xəttinin bərpa-yenidənqurmasını və Axalkalakidən Türkiyə ilə sərhədə qədər yeni dəmir yolu xəttinin çəkilməsini nəzərdə tutur.

"Bakı-Tbilisi-Qars" layihəsi Azərbaycan, Gürcüstan və Türkiyənin dəmir yol xəttlərini birləşdirəcək yeni nəqliyyat dəhlizinin bir hissəsidir. Bu layihənin reallaşdırılması nəticəsində Asiyadan Türkiyə vasitəsi ilə Avropaya dəmir yolu dəhlizi açılacaq", — deyə Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Dmitri Kumsişvili bildirib.

Azərbaycan tərəfi "Bakı-Tbilisi-Qars" dəmir yolu xəttinin işə salınmasının 2016-ci ilin sonuna planlaşdırıldığını bildirir.

# Turqay Mikayılov Gürcüstana təhvil verilib

Gürcüstanın Bolnisi rayonunun Faxralı kənd sakini, 5 ay Ermənistanda həbsdə saxlanılmış azərbaycanlı Turqay Mikayılov evinə qayıdıb.



Bu barədə APA-nın Gürcüstan bürosuna onun qohumu Məhəmməd Bayramov bildirib. M. Bayramov deyib ki, T. Mikayılov bu gün saat 04.00 radələrində Sadaxlı gömrük məntəqəsində təhvil verilib: “Ermənistan və Gürcüstan gömrük məntəqələrində sərhəddən keçmə proseduru bir az gecikdi və Turqayın sənədləri ətraflı yoxlandıqdan sonra Faxralıya gəldik. Səhhəti normaldır, bu gün kənd sakinləri, sabah isə rəsmi şəxslər onunla görüşəcəklər".

Qeyd edək ki, Faxralı kənd sakini, soydaşımız Turqay Mikayılov dekabrın 23-də Ermənistanda həbsdən azad edilib. O, iyulun 23-də yolu azaraq, Ermənistan tərəfə keçib. Hadisə Dmanisinin Yırğançay kəndinin yaxınlığında, Faxralı sakinlərinə məxsus yaylaqda baş verib. Turqay həmin ərazidə çobanlıq edib və siqaret almaq üçün dağdan enərkən, yolu azaraq Ermənistanın Cücə kəndinə gedib. Həmin kənd sakinləri onu saxlayaraq, Ermənistan sərhədçilərinə təhvil veriblər.

# Sürücüləri hansı yeniliklər gözləyir?

Gürcüstan Daxili İşlər nazirinin müavini Şalva Xutsişvilinin bildirdiyinə görə, yol hərəkətinin təhlükəsizliyi proqamı ilə əlaqədar 2016-cı il yanvarın 1-dən bütün kateqoriyalardan olan sürücülük vəsiqələrinin hər birinə 100 bal veriləcəkdir. Əgər patrul yol hərəkətini pozduğuna görə (telefonla danışdığına, ötmə qaydalarını pozduğuna, qəza vəziyyəti yaratdığına və s.) sürücünü cərimələyərsə, qaydaların pozulması hallarından asılı olaraq sürücülük vəsiqəsindəki balın müəyyən hissəsi avtomatik olaraq azaldılacaqdır.

Sürücülük vəsiqəsinə verilmiş bal sıfır dərəcəsinə düşənədək qaydanı pozmuş sürücülərə onların nə qədər bal itirdikləri ilə əlaqədar SMS vasitəsilə xatırlamalar göndəriləcəkdir. Sürücülük vəsiqəsindəki 100 bal sıfıra düşdükdə isə sürücüyə göndərilən SMS-də bildiriləcəkdir ki, onun sürücülük vəsiqəsi qüvvəsini itirmişdir. Nazir müavini bildirmişdir ki, sürücülük vəsiqəsi ləğv edilənlər yenidən imtahan verəcək və sürücülük vəsiqəsi almaq niyyətində olarlarsa, bu barədə agentliyə müraciət etməlidirlər.

Hər ilin sonunda sürücülük vəsiqələrinə verilmiş ballar ləğv ediləcək və yeni ildən onlara daha 100 bal veriləcəkdir.

Ş.Xutsişvili demişdir ki, yollar arasında çəkilmiş bütöv xəttin üzərini ayaqlayan və hərəkətin əks tərəfinə keçən sürücünün cəriməsi altı dəfə artırılacaq, 300 larini təşkil edəcəkdir. Cərimələr sükan arxasında mobil telefonla danışanlara, sürəti artıranlara, düzgün manevr etməyənlərə və avtomobili sərxoş halda idarə edənlərə qarşı da artırılacaqdır.

Gizli polis xidmətinin Gürcüstanda da tətbiq edilməsi nəzərdə tutulmuşdur. Daxili İşlər nazirinin müavini demişdir ki, gizli patrulun yaranması baş verəcək qəzaların qarşısını müəyyən qədər alacaqdır.

## Akaki Seretelinin "Başı açıq" romanı türk dilinə tərcümə olunub

Gürcüstan paytaxtındakı İlya Çavçavadze adına Gürcüstan Parlament Kitabxanasında XIX əsrin görkəmli gürcü yazıçısı, ictimai xadim Akaki Seretelinin türk dilinə tərcümə edilmiş "Başı açıq" tarixi hekayəsinin təqdimatı keçirilib.




Kitabxananın beynəlxalq münasibətlər üzrə koordinatoru Kaki Kençoşvili, Yunus Əmrə adına Tiflis Türk Kültür Mərkəzinin rəhbəri Zəkəriyyə Gültəkin, kitabın tərcüməçiləri olan İvane Cavaxişvili adına Tiflis Dövlət Universitetinin magistraturasında təhsil alan Gül Mükərrəm Sezgin Öztürk, İvane Cavaxişvili adına Tiflis Dövlət Universitetinin müəllimləri Əsmət Caparidze və Meri Tsiklauri tədbirdə çıxış edərək kitab haqqında danışıblar. Sezgin Öztürk A. Seretelinin əsərinin XVII əsrdə fars və gürcü müharibəsindən bəhs etdiyini bildirib.

Romanının nəşrini Türkiyənin Gürcüstandakı səfirliyi həyata keçirib.

**Nizami Məmmədzadə**

## Müəllimlərin maaşı 600-700 larini təşkil edəcək

2016-cı ilin aprelindən müəllimlərin orta əmək haqqı 600-700 lari məbləğində olacaqdır. Bu barədə məlumatı Nazirlər Kabinetinin növbəti iclasında Təhsil və Elm naziri Tamar Sanikidze verməşdir. Nazir 2017-ci ildə müəllimlərin



maaşlarının yenə də artırılacağının planlaşdırıldığını bildirmişdir.

T.Sanikidze tədqiqat müəssisələrində orta əmək haqqının əvvəlki 150-200 laridən hazırda 600-700 lariyədək artırıldığını da vurğulamışdır.

## Gürcüstan MN müqavilə ilə hərbi xidmətə qəbula başlayıb

Gürcüstan Müdafiə Nazirliyindən verilən məlumatda ölkədə müqavilə ilə hərbi xidmətə qəbulun başlandığı bildirilir. Müqavilənin 4 il müddətinə bağlandığı və xidmətə18 yaşdan 35 yaşadək vətəndaşların qəbul edildiyi qeyd olunmuşdur. Müvafiq tələblərə cavab verən və müqavilə ilə hərbi xidmət keçənlərin aylıq maaşı 950 larini təşkil edəcəkdir.

## Dövlət naziri Marneulidə "NATO və AB haqqında informasiya mərkəzinin nümayəndəliyi"-nin açılışını həyata keçirdi

18 dekabr tarixində Marneuli bələdiyyəsinin icra hakimiyyəti binasında "NATO və Avropa Birliyi haqqında informasiya mərkəzi"-nin açılışı oldu. Mərkəzin açılışında Avropa və Avroatlantika strukturlarına inteqrasiya məsələləri üzrə dövlət naziri Davir Bakradze, "NATO və AB haqqında informasiya mərkəzinin direktoru Elene Qotsadze, Slovakiyanın Gürcüstandakı səfiri Rudolf Mixalka,



Kvemo Kartli qubernatoru P. Xizanişvili və digər dövlət nümayəndələri iştirak etdilər. Mərkəz Marneuli bələdiyyəsi sakinlərinin məlumatlandırılmasına xidmət göstərəcək.

## Etnik azlıqların təhsil siyasətinə dair sənəd hazırlanmışdır



Gürcüstan Təhsil və Elm Nazirliyi yerli və beynəlxalq ekspertlərin iştirakı ilə etnik azlıqların təhsil siyasəti sənədini hazırlamışdır. Nazirlikdən verilən məlumatda qeyd olunur ki, təhsil siyasəti məktəbəqədər, məktəb, peşə və ali məktəbləri, həmçinin pedaqoji kardlarla təhsil ocaqlarının təmin olunması məsələlərini əhatə edir.

## Gürcüstan Parlamenti ölkənin Baş prokuroru vəzifəsinə İ.Şotadzenin namizədliyini dəstəkləyib



Gürcüstan Parlamenti ölkənin Baş prokuroru vəzifəsinə İrakli Şotadzenin namizədliyini təsdiq etmişdir. Gizli səsvermə zamanı onun lehinə 82, əleyhinə 15 nəfər deputat səs vermişdir.

Yeni Baş prokuror indiyədək birinci müavini olduğu Giorgi Badaşvilini əvəz etmişdir. O, 6 il müddətinə bu vəzifəni tutacaqdır.

## Sorğunun nəticələri məlum olub

Partiyalara, xarici siyasətə və cari proseslərə qarşı ictimaiyyətin əhval-ruhiyyəsi necədir? Tədqiqat noyabrın 17-dən dekabrın 7-dək keçirilib. Ölkə miqyasında 1881 vətəndaş sorğu olunub. Sabah parlament seçkiləri olarsa, kimə səs verərdiniz, sualına cavab olaraq sorğu olunanların 16 faizi «Kartuli otsneba»nı, 10 faizi «Milli hərəkatı», 7 faizi «Azad demokratları» göstərib. Respondentlərin 35 faizi bildirib ki, rəyi həlləlik qəti deyil. 15 faizi isə suala rədd cavabı verib.

## Prezident administrasiyasının yeni rəhbəri



Gürcüstan prezidenti administrasiyasının yeni rəhbəri təyin olunmuşdur. İndiyədək bu vəzifədə çalışmış David Pataraya öz ərizəsi əsasında işdən getdikdən sonra onun yerini Giorgi Abaşişvili tutmuşdur.

## Gürcüstan Müdafiə Nazirliyində kadr dəyişikliyi



Gürcüstanın Müdafiə Nazirliyində kadr dəyişikliyi həyata keçirilmişdir. Baş qərargah rəisinin birinci müavini Vladimir Çaçibaia Müdafiə Nazirliyi Akademiyasının rektoru təyin edilmişdir. Baş Qərargah rəisinin birinci müavini vəzifəsini Omar Beqoidzenin tutacağı bildirilmişdir.

## Qardabani Rayon İcra Hakimiyyəti başçısının növbədənkənar seçkisi təyin olunmuşdur



Gürcüstan prezidentinin müvafiq sərəncamı ilə Qardabani Rayon İcra Hakimiyyəti başçısının növbədənkənar seçkisi təyin olunmuşdur. Rayonun yeni icra başçısının seçkiləri 2016-cı il yanvarın 28-də keçiriləcəkdir. Rayon İcra Hakimiyyətinin sabiq başçısı Qarsevan Nioradze 55 yaşında ürək tutmasından vəfat etdikdən sonra yeni seçkilərin keçirilməsi qərara alınmışdır.

## Dünya Azərbaycanlılarının Həmrəylik gününə həsr olunan tədbir keçirilib

Dekabrın 24-də İvane Cavaxişvili adına Tiflis Dövlət Universitetində Heydər Əliyev Fondunun təşkil etdiyi "Azərbaycan Mərkəzi"ndə 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunan tədbir keçirilib. Tədbirdə universitetin azərbaycanlı tələbələri iştirak ediblər. Tədbiri mərkəzin əlaqələndiricisi Leyla Əmrahova açaraq tələbələrə 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəylik Gününün tarixi haqqında ətraflı məlumat verərək, qeyd edib ki, dünyanın harasında yaşamağından asılı olmayaraq, hər bir azərbaycanlı öz millətini, Azərbaycan dövlətini unutmamalı, azərbaycançılıq ideyalarını təbliğ etməli və Azərbaycan adlı vətənin adını ucaltmalı, nəhayət milli və mənəvi birliyimizi gücləndirməlidir.

Tədbirdə çıxış edən tələbələr Gürcüstanın ali təhsil müəssisələrində təhsil alan digər azərbaycanlı gənclərin Gürcüstanda daha həmrəy olduqlarını,



azərbaycanlıların milli birliyinə, həmçinin gürcü xalqının nümayəndələri ilə dostluğu və qardaşlıq ənənələrini, xalqlarımızın isti münasibətlərini həmişə qorumağa və inkişaf etdirməyə çalışdıqlarını bildiriblər.

Sonda tələbələr 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə bağlı universitetdə, Gürcüstanda yaşayan azərbaycanlılar arasında və digər yerlərdə mütəmadi olaraq söhbətlər aparmaq və bu əlamətdar günü ümumdünya həmrəyliyi günü kimi yaşatmaq və inkişaf etdirmək üçün təbliğatı gücləndirmək qərarına gəliblər.

Azərbaycanlı tələbələr həmin gün TDU-nun rektoru Vladimir Papava, Azərbaycanın Gürcüstandakı səfirliyinin rəsmiləri Dursun Həsənov və Əli Ələbbasov ilə də görüşərək Həmrəylik Günü haqqında fikir mübadiləsi apardılar. TDU-nun rektoru V. Papava Azərbaycan və azərbaycanlılar haqqında özünün müsbət fikirlərini söyləyib.

Görüşün sonunda universitetin rektoru azərbaycanlı tələbələrə təhsildə və ictimai işlərdə, həmçinin həyatda uğurlar arzulayıb.

**Nizami Zillioğlu**

## Yeni sistemə keçid

Universitetlərin, kolleclərin və məktəblərin rəqəmsal yazıları bir elektron məkanda cəmləşdiriləcək. Gürcüstanın 72 ali , 86 peşə kolleci, 2 min 333 məktəbi və 700-ə qədər tələbəsi xidmətdən istifadə edəcək.

## İlkin xəbərdarlıq meteosistemi

Qardabani rayonunun Norio kəndində quraşdırılmış yeni meteoradiolokator işə düşüb. Yeni növ avadanlıq daimi rejimdə hava informasiya məkanını müşahidə etmək, qorxulu meteoroloj hadisələri aşkar etmək və informasiyanı gəmilərə ötürmək imkanını verir.

## Yeni qayda müzakirə olunub

Gürcüstan Cinayət-Prosessual Məcəlləsinə dəyişikliklər daxil edilir. Əgər qanun layihəsi təsdiq olunarsa, o, 2016-cı il fevralın 20-dən qüvvəyə minəcək. Yeni qaydaya uyğun olaraq, şahidin sorğu olunması vacib olduqda istintaq idarələri hesab etdikləri təqdirdə, şahidlərin ifadə verməkdən imtina etmək hüququ vardır. Onda şahidi istintaq orqanlarında deyil, magistrant hakimin iştirakı ilə sorğu edəcəklər. Başdan verdiyi ifadəni dəyişmək istəyən şəxsin cinayət məsuliyyəti üzərindən götürülür.

**Mirzə Maşov**

## Yunanıstana 1 milyard avro ayrıldı



Avropa Sabitlik Mexanizminin (EMC) Yunanıstana maliyyə yardımının növbəti tranşını ayırıb.

"Report"un "TASS" agentliyinə istinadən verdiyi xəbərə görə, bu gün ayrılan makro iqdisadi yardımın məbləği 1 milyard avroya çatıb.

Qeyd edək ki, EMC-nin Afinaya ödəyəcəyi ümumi maliyyə yardımının məbləği 86 milyard avro təşkil edir.

Bu məbləğin 25 milyardı ilkin olaraq bank sektorundakı problemlərin həlli üçün nəzərdə tutulub.

## BMT-nin 2016-2017-ci illər üçün büdcəsi qəbul edilib

***BMT Baş Assambleyası 2016-2017-ci illər üçün təşkilatın büdcəsini qəbul edib.***

Təşkilatın növbəti il üçün büdcəsi son iki illə müqayisədə 2,3 % azalaraq 5,4 milyard dolar təşkil edib.

Qətnamə Baş Assambleyanın plenar sessiyasında yekdilliklə qəbul olunub.

Sənədə əsasən məbləğin böyük qismi - 1,2 milyarddan çox vəsait BMT-nin siyasi məsələlər üzrə departamentinin saxlanmasına sərf ediləcək. Sülhyaratma əməliyyatlarına dair xərclər büdcəyə daxil edilməyib. 20 iyun 2016-cı ilə kimi olan cari maliyyə ili üçün bu məqsədlə 8, 27 milyard dollar ayrılıb.

BMT baş katibi Pan Gi Mun bildirib ki, büdcənin növbəti ixtisarı son illər təşkilatın üzləşdiyi çətin maliyyə vəziyyətini göstərir.

Qeyd edək ki, BMT-nin büdcəsi müntəzəm olaraq dövlətlərin ödədiyi üzvlük haqqı hesabına formalaşır. Hər dövlətin payına düşən məbləğ son 10 ildə adambaşına düşən ÜDM-nin orta göstəricisi və eləcə də, xarici borcların səviyyəsinə əsasən müəyyən edilir.

## Vrotslav Universitetində "Koroğlu"nun tərcüməçisinin xatirə lövhəsi açılıb

Azərbaycanın Polşadakı səfirliyinin təşəbbüsü ilə Vrotslav Universitetində "Koroğlu" dastanının tərcüməçisi, tanınmış polyak şərqşünası Aleksandr Xodzdkoya həsr edilən xatirə lövhəsinin açılışı olub.

Tədbirdə Vrotslav Universitetinin rektoru, professor Marek Boyarski, prorektorlar, Senatın üzvləri, müəllim və tələbələr iştirak ediblər.



Rektor Marek Boyarski Azərbaycan xalqının özünün dəyərli ədəbiyyat nümunələrinə qiymət verməklə bərabər, Aleksandr Xodzko kimi alimləri unutmadığına görə dərin təşəkkürünü bildirib.

O, universitetdə qurulmuş xatirə lövhəsinin Azərbaycana marağın artmasına səbəb olacağına və ölkələrimiz arasında mövcud əlaqələrin güclənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Həsən Həsənov çıxışında səfirlik tərəfindən həyata keçirilən "Biz unutmuruq" layihəsi çərçivəsində vaxtilə öz fəaliyyətləri ilə Azərbaycan və Polşa əlaqələrinin inkişafına töhfə vermiş şəxslərin xatirəsinə Polşanın bir sıra şəhərlərində 12 abidə, barelyef və lövhələr qurulduğunu söyləyib.

O, tədbir iştirakçılarına müasir dövr Azərbaycan-Polşa əlaqələri haqqında məlumat verib. Xatirə lövhəsinin açılışının iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin təcəssümü olduğunu diqqətə çatdırıb.

## Pan Gi Mun: *"Prezidentlərin Bern görüşü sülh prosesini yaxınlaşdıracaq"*



Azərbaycan və Ermənistan prezidentləri arasında keçirilmiş görüşün tərəfləri sülh prosesinə yaxınlaşdıracağına ümid edirəm.

Bu barədə BMT-nin baş katibi Pan Gi Mun bəyan edib.

Baş katib hesab edir ki, görüş tərəflərə atəşkəs rejiminin pozulması hallarının və mülki əhali arasında itkilərin sayının azaldılması istiqamətində əməli addımların müzakirə edilməsi, sülh prosesinin yaxınlaşdırılması yollarının müəyyən edilməsi üçün imkan yaradıb.

O, həmçinin Bern sammitini təşkil etmiş ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyətini qeyd edib.

Baş katib Bakı və İrəvanı Minsk qrupu ilə yaxından əməkdaşlıq etməyə, zorakılıq hallarına gətirəcək addımlardan çəkinməyə çağırıb.

## Səudiyyə Ərəbistanı tarixində bir ilk - 20 qadın deputat seçildi

***Səudiyyə Ərəbistanı tarixində qadınlar ilk dəfə bələdiyyə orqanlarına deputat seçiliblər.***



Bütün ölkə üzrə 20 qadın namizəd qalib olub

Daha əvvəl Səudiyyə Ərəbistan tarixində bir qadının ilk dəfə deputat seçilməsi xəbərini vermişdik.

Bələdiyyə seçkiləri ölkə tarixində qadınların iştirak edə biləcəyi ilk seçki olub. Onlara səs vermək və seçilmək hüququ verilib.

Ümumilikdə seçkidə 978 qadın deputat iştirak edirdi. Kişilər arasında isə namizədlərin sayı 5938 nəfər idi.

## Türkiyənin 18-ci baş naziri vəfat edib

***Türkiyədə 1980-ci il sentyabrın 12-də baş verən hakimiyyət çevrilişi zamanı ölkənin baş naziri olmuş Saim Bülend Ulusu 92 yaşında vəfat edib.***



Bu haqda Türkiyə KİV-i məlumat yayıb.

Çevrilişdən sonra ölkənin Milli Təhlükəsizlik Şurası ona 44-cü hökuməti formalaşdırmağı tapşırıb. Bununla da Türkiyənin müasir tarixinə 18-ci baş naziri kimi düşüb.

Saim Bülend Ulusu 1983-87-ci illərdə millət vəkili olub.

Qeyd edək ki, 1980-ci il sentyabr 12-də baş verən hərbi çevrilişin başçısı general Kənan Evren olub. O, bu il mayın 10-da 98 yaşında vəfat edib.




**336** — Tarixdə ilk dəfə Romada "Yeni il" qeyd edilmişdir.

**1642** — İngilis fiziki İsaak Nyuton anadan olmuşdur.

**1925** — Beynəlxalq təqvim və saat qəbul edilmişdir.

**1938** — Çex yazıçısı Karel Çapek vəfat etmişdir. O ordu həyatına dair əsərləri ilə şöhrət tapıb. Çapek tarixə robot sözünün müəllifi kimi düşüb.

**1975** — Bakı Məişət Kondisionerləri zavodu işə salınmışdır.

**1988** — Ermənistandan 250 mindən çox azərbaycanlının deportasiya edilməsi başa çatdırılmışdır.

**1991** — SSRİ-nin ilk və son prezidenti Mixail Qorbaçov istefa vermişdir. İstefanın ertəsi günü SSRİ süqut etmişdir.

**1991** — "Latın qrafikalı azərbaycan əlifbasının bərpa edilməsi haqqında" qanun qəbul edilmişdir.

**1991** — İran, ABŞ və İsrail Azərbaycanın müstəqilliyini tanımışdır.

## ABŞ yanvardan dünya neft bazarına qayıdır

Neft ixracına qoyulmuş 40 illik qadağanın ləğvindən sonra "Enterprise Products Partners" şirkəti 2016-cı ilin yanvarında ABŞ neftini dünya bazarına çıxaracaq.

APA-nın "The Wall Street Journal" qəzetinə istinadən verdiyi xəbərə görə, yeni ilin ilk həftəsində Xyuston terminalından 600 min barel neft yüklənəcək.

ABŞ neftinin ilk partiyasını Niderlandın "Vitol Group" şirkəti əldə edəcək. Neft əvvəl İsveçrədə yerləşən, Şimali Avropanı dizel və digər növ yanacaqlarla təchiz edən neft emalı zavoduna çatdırılacaq. Bildirilir ki, yeni tədarük ediləcək ABŞ nefti Səudiyyə Ərəbistanı, Rusiya və İran nefti ilə rəqabət aparmağa qadirdir.



Xatırladaq ki, ABŞ prezidenti Barak Obama Konqresin 2016-cı il üçün təsdiqlədiyi federal büdcəni imzalayıb. Büdcəyə əsasən xam neft ixracına olan 40 illik qadağa ləğv olunub.

ABŞ-dan xam neftin xaricə tədarükünə qadağa 1975-ci ildə qoyulmuşdu. Bu hüquqi-normativ akt Yaxın Şərqdə münaqişə nəticəsində yaranmış enerji böhranı dövründə, ərəb ölkələri tərəfindən 1973-cü ildə Qərb ölkələrindən neftin tədarükünə qoyulan embarqodan sonra tətbiq edilmişdi.

## MDB-yə üzv dövlətlərin müdafiə nazirləri Hava-Kosmik Müdafiəsi Konsepsiyası layihəsini qəbul edib

***MDB-yə üzv dövlətlərin müdafiə nazirləri Hava-Kosmik Müdafiəsi Konsepsiyası layihəsini qəbul ediblər.***



Bunu MDB-yə üzv dövlətlərin müdafiə nazirlərinin iclasının yekununa həsr edilən mətbuat konfransında Rusiyanın müdafiə naziri Sergey Şoyqu deyib.

Qeyd edək ki, iclasda digər sənədlər də qəbul olunub.

Xatırladaq ki, Azərbaycanın müdafiə naziri Zakir Həsənov da həmin toplantıda iştirak edib.

## MDB Müdafiə Nazirləri Şurası 2016-cı il üçün fəaliyyət planını müəyyən edəcək

***MDB Müdafiə Nazirləri Şurası növbəti 69-cu iclasında 2016-cı il üçün birgə fəaliyyət planını müəyyən edəcək.***

Bu barədə Rusiyanın Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumatında bildirilir.

Məlumata görə, tədbirdə Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan və Özbəkistanın müdafiə nazirləri, həmçinin MDB İcraiyyə Komitəsinin və MDB Müdafiə Nazirləri Şurasının Katibliyinin nümayəndələri iştirak edəcək.

"MDB-yə üzv ölkələrin Hərbi Əməkdaşlıq Konsepsiyasının 2015-ci ilədək reallaşdırılmasının nəticələrini müzakirə edilməsi və 2016-cı il üçün birgə fəaliyyət planını müəyyən edilməsi nəzərdə tutulub. İclasın yekunlarına dair birləşdirilmiş havadan müdafiə sisteminin inkişaf etdirilməsi, rabitə sistemi, minalardan təmizləmə sahəsində əməkdaşlığın genişləndirilməsi, hərbi kadrların tədrisi, əməliyyat və döyüş hazırlığı üzrə və hərbi-idman sahəsində birgə tədbirlərin keçirilməsinə dair məsələlər üzrə qərarlar qəbul ediləcək", deyə məlumatda bildirilir.

İclas zamanı müdafiə nazirliklərinin əməkdaşlığının müxtəlif istiqamətləri üzrə 20-dən çox məsələ nəzərdən keçiriləcək.

Tədbir çərçivəsində bir sıra ikitərəfli görüşlərin keçirilməsi planlaşdırılır.

Milli musiqi sənətimizin görkəmli simalarından biri, Azərbaycan musiqisini bütün dünyada böyük sevgi ilə tərənnüm edən Rəşid Behbudovun 100 illik yubileyidir. Görkəmli müğənni, aktyor, Sosialist Əməyi Qəhrəmanı, xalq artisti Rəşid Behbudovun xatirəsi hər zaman böyük ehtiramla yad edilir. Azərbaycan dövləti Rəşid Behbudov sənətinə, Rəşid Behbudov şəxsiyyətinə, onun mədəni irsinə həmişə qayğı ilə yanaşıb.

2005-ci ildə dövlət xəttilə dünya şöhrətli Rəşid Behbudovun 90 illik yubileyi Azərbaycanın bir sıra şəhər və rayonlarında yüksək səviyyədə qeyd edildi.

2005-ci ildə Gəncədəki mərkəzi kitabxanada görkəmli müğənni, SSRİ xalq artisti Rəşid Behbudovun anadan olmasının 90 illik yubileyinə həsr olunan tədbir keçirilib. Ecazkar səsə, böyük aktyorluq məharətinə malik Rəşid Behbudovun həyat və yaradıcılığı olduqca dəyərlidir. O da məlumdur ki, hələ sovetlər birliyi zamanı Azərbaycanın və eləcə də milli musiqimizin dünyaya tanıdılmasında böyük sənətkarın xidmətləri danılmazdır.

2010-cu ildə isə Rəşid Behbudovun 95 illik yubileyi keçirildi.



# Dünya şöhrətli müğənnimiz Rəşid Behbudovun 100 illik yubileyi...

Yubiley tədbirləri çərçivəsində "Rəşid Behbudov və Azərbaycan bəstəkarları" mövzusunda konfranslar, tədbirlər keçirilib.

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, xalq artisti Firəngiz Əlizadə "Rəşid Behbudov Azərbaycanın ən parlaq simalarından biridir" deyə qeyd edirdi.

Rəşid Behbudovun yubileyləri hər zaman dövlət xəttilə keçirilir.

Qeyd etdiyimiz kimi, bu il R.Behbudovun 100 yaşı tamam olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu ilin mart ayında Rəşid Behbudovun 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir: "2015-ci ilin dekabr ayında dünya şöhrətli musiqi xadimi, görkəmli müğənni və tanınmış ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının xalq artisti, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı Rəşid Məcid oğlu Behbudovun anadan olmasının 100 illiyi tamam olur. R.Behbudov Azərbaycanın çoxəsrlik mədəniyyəti tarixinin yetirdiyi böyük simalardandır. Özünəməxsus ifaçılıq tərzinə və həzin lirizm çalarlı ecazkar səsə malik sənətkar təkrarolunmaz yaradıcılığı boyunca sənət aləminə gətirdiyi yeniliklərlə milli musiqi salnaməsini xeyli zənginləşdirmişdir. Çoxşaxəli fəaliyyəti dövründə özünün qurduğu və bu gün də adını daşıyan Azərbaycan Dövlət Mahnı Teatrı mədəniyyətə sanballı töhfə təşkil edir. R.Behbudovun kino aktyoru kimi canlandırdığı unudulmaz obrazlar ölkə kinematoqrafiyasının parlaq səhifələridir. Vətənə və xalqa son dərəcə bağlı olan sənətkar dünyanın ən məşhur teatr səhnələri və konsert salonlarındakı rəngarəng repertuarlı saysız çıxışları ilə Azərbaycan mədəniyyətinə geniş şöhrət qazandırmışdır".

Bu ilin mart ayından imzalanan Sərəncamdan irəli gələrək respublikamızın bütün mədəniyyət ocaqlarında R.Behbudovun anadan olmasının 100 illiyi qeyd olunur. Bu il belə silsilə tədbirlər çox keçirilib və onlardan biri də Lənkəranda baş tutub. Lənkəran şəhərindəki Mərkəzləşdirilmiş Kitabxanada baş tutan yubiley tədbirində rayonun mədəniyyət işçiləri və ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Musiqişünaslar qeyd edir ki, özünəməxsus ifaçılıq tərzinə və həzin lirizm çalarlı ecazkar səsə malik sənətkar təkrarolunmaz yaradıcılığı boyunca sənət aləminə gətirdiyi yeniliklərlə milli musiqi salnaməsini xeyli zənginləşdirib. Vətənə və xalqa son dərəcə bağlı olan sənətkar dünyanın ən məşhur teatr səhnələri və konsert salonlarında rəngarəng repertuarlı saysız çıxışları ilə Azərbaycan mədəniyyətinə geniş şöhrət qazandırıb.

*Tələsin, insanlar, şadlıq görməyə,*
*Qəm-qüssə görməyə gecikin bir az.*
*Tələsin, insanlar, deyib-gülməyə,*
*Göz yaşı tökməkdən bezikin bir az...*

"Tələsin insanlar" mahnısını Rəşid Behbudovun ifasında yüz dəfələrlə dinləmişik, amma hər dəfə bizə elə gəlir ki, bu mahnını ilk dəfə dinləyirik.

Azərbaycan mədəniyyətini və incəsənətini dünya arenasına çıxarmaqda misilsiz xidmətləri olan, milli musiqimizin gücü və Tanrının bəxş etdiyi ecazkar səsinin sehri ilə milyonların, milyardların qəlbini ovsunlayan bənzərsiz sənətkar R.Behbudovun irsi tükənməzdir.

R.Behbudov SSRİ-nin bütün respublikalarında, eləcə də Albaniya, Bolqarıstan, ərəb ölkələri, Hindistan, Çin, Finlandiya, İran, İraq, Türkiyə, Çili, Argentina və s. ölkələrdə dəfələrlə qastrol səfərlərində olub.

"R.Behbudov nadir bir insandır, nadir şəxsiyyətdir. Azərbaycan mədəniyyəti tarixində bənzərsiz bir incəsənət ustasıdır"-deyə Azərbaycan Respublikasının sabiq Prezidenti, mərhum Heydər Əliyev bildirirdi. R.Behbudov sənətinə yüksək dəyər verən Heydər Əliyev bu böyük sənətkarı hər zaman qiymətləndirirdi.

Xalq artisti, sənət dostu Lütfiyar İmanov da R.Behbudov sənətinə yüksək qiymət verirdi: "Sevimli sənətkarımızın Azərbaycan şəlalələrinin şırıltısı kimi könül aşan

ecazkar səsinin xoş sədası hələ bundan sonra da neçə-neçə ürəkləri fəth edəcək".

"Eşq olsun ürəyində xalqını gəzdirən, əməllərində xalqının ruhunu yaşadan Vətən oğullarına! Belə oğullar hər yeni nəsillə birgə yenidən doğulur, ömrü xalqın ömrünə qarışır, yaşı da şərtiləşir" - deyə xalq şairi Bəxtiyar Vahabzadə bildirirdi. O, Rəşid sənətinin böyüklüyünü bir daha bəyan edirdi.

Qeyd edək ki, Rəşid Məcid oğlu Behbudov 1915-ci il dekabrın 14-də Tiflisdə xanəndə Məcid Behbudalı oğlunun ailəsində dünyaya gəlib. Anası Firuzə xanım Vəkilovlar nəslinə mənsub idi. Uşaq yaşlarından məktəb xorunda oxuyan Rəşid 1933-cü ildə Dəmir yolu Texnikumuna daxil olub. Təhsili dövründə tələbə özfəaliyyət orkestrində çalışıb.

Tədqiqatçılar yazır ki, hərbi xidməti zamanı ordu ansamblının solisti olan R.Behbudov əsgəri xidmətdən sonra Tiflis estrada qruplarından birində solistlik edir və tezliklə bəstəkar A.Eyvazyanın rəhbərlik etdiyi Ermənistan Dövlət Caz Orkestrində solistliyə başlayır. 30-cu illərdə Ermənistan Dövlət Opera və Balet Teatrında klassik operaların xor səhnələrində solo oxuyur. 1939-cu ildə həmin teatrın truppası ilə birlikdə Moskvada Ermənistan incəsənəti günlərində iştirak edir. 1942-ci ildə kollektivlə birgə Krım cəbhəsinə yollanır. 1943-cü ilin sonunda Bakı kinostudiyasında Üzeyir Hacıbəyovun eyniadlı operettasının motivləri əsasında çəkilən "Arşın mal alan" filmində baş rola dəvət alır. 1945-ci ildə film efirə çıxır və çox tez bir zamanda nəinki Azərbaycanda, bütün Sovet İttifaqında böyük populyarlıq qazanır. 1946-cı ildə bu filmdəki Əsgər roluna görə R.Behbudov "Stalin mükafatı" ilə təltif olunur. 1949-cu ildə Budapeştdə keçirilən Gənclərin və Tələbələrin Ümumdünya Festivalında çıxış edir.

Onu da bildirək ki, "Arşın mal alan" filmindən sonra R.Behbudov yenidən filmə çəkilir. 1955-ci ildə görkəmli rejissorumuz Lətif Səfərovun ekranlaşdırdığı "Bəxtiyar" filmində baş rola çəkilən R.Behbudov burada həm bir aktyor, həm də müğənni kimi özünü ifadə edə bilib. Bilirik ki, R.Behbudov haqqında ayrı-ayrı dönəmlərdə çoxlu verilişlər, sənədli filmlər çəkilib. Bunların hər biri Azərbaycan tamaşaçısı üçün çox dəyərlidir.

1953-1960-cı illərdə fasilələrlə M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti, 1957-1959-cu illərdə Azərbaycan Dövlət Konsert Ansamblının təşkilatçısı və rəhbəri olub. 1966-cı ildən musiqi və estrada sənətinin caz, balet, pantomim kimi müxtəlif janrlarını üzvi surətdə birləşdirən Azərbaycan Dövlət Mahnı Teatrını təşkil edir və ömrünün sonunadək onun solisti və bədii rəhbəri olur.

Tədqiqatçılar qeyd edir ki, bütün sovet respublikaları ilə yanaşı, Argentina, Bolqarıstan, Belçika, Çili, Çin, Efiopiya, Finlandiya, Hindistan, İran, İraq, İtaliya, Misir, Türkiyə və s. ölkələrdə geniş repertuarla çıxış edən R.Behbudov Azərbaycan xalq mahnılarının və Azərbaycan bəstəkarlarının vokal əsərlərinin xarici ölkələrdə populyarlaşmasında çox böyük rol oynayıb. R.Behbudov Hindistana səfəri haqqında "Uzaq Hindistanda" kitabını yazıb.

Dahi sənətkar 1989-cu il iyunun 9-da Moskva şəhərində vəfat edib. Məzarı I Fəxri Xiyabandadır.

Qeyd edək ki, 1959-cu ildə R.Behbudova SSRİ xalq artisti adı verilib, 1978-ci ildə Azərbaycan SSR Dövlət mükafatına,

24 aprel 1980-ci ildə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb, həmin vaxt "Lenin", "Qırmızı Əmək Bayrağı" ordenləri ilə təltif edilib.

R.Behbudovun ifa etdiyi hər bir əsər, mahnı yaddaşlarda yaşayır. Bilirik ki, bir sıra bəstəkarların əsərlərinin ilk ifaçısı və həmin əsərlərə dünya şöhrəti qazandıran R.Behbudov olub. Tədqiqatçılar bildirir ki, Azərbaycan musiqi və estrada sənətinin müxtəlif janrlarını birləşdirərək incəsənətimizin yeni, orijinal və pozulmaz səhifələrini yazdı. Dahi sənətkarın yadigar və nişanə qalan Mahnı Teatrı bu gün böyük müğənninin adını daşıyır və yaşadır. R.Behbudov elə böyük ürək sahibi idi ki, həmişə özündən sonra gələnləri düşünürdü. İndi onun yaratdığı bu sənət məbədində məhz Rəşid məktəbinin davamçıları fəaliyyət göstərir. R.Behbudov Azərbaycan incəsənətinin dünyada tanınan iki-üç simasından biri olub.

Vətənpərvər, Azərbaycansevər olan sənətkar ölkəmizin müstəqillik qazanmasına fədakarlıqla əmək verən sənətkarlardan olub. Azərbaycan naminə dünyanın ən müxtəlif ölkələrində konsertlər verən R.Behbudov anamız Azərbaycanı yüksək səviyyədə təbliğ edib.

Böyük müğənninin, dahi sənətkarın yaratdığı məktəb bu gün də mövcuddur, yüzlərlə musiqiçi, müğənni onun yolunu davam etdirir. Sevindirici haldır ki, böyük sənətkarı dünyanın bir çox yerində tanıyır, ifasında səslənən əsərləri dinləyirlər.

Ölməz R.Behbudov yüz yaşına çatsa da, hələ də ürəklərdə, könüllərdə gənclik eşqi, həvəsi ilə oxuyan böyük sənətkar kimi yaşayır.



**İradə Kövrək (Sarıyeva)**

# Bizim mizantrop Hökumət

*(təzkirə)*

Can Azərbaycanın Nazirlər Kabineti yanında Terminologiya Komissiyasında hazırlanmış Azərbaycan dilində şəxs adları lüğətinə daxil edilməyən adlar açıqlanıb. Qadağan olunmuş 217 ad sırasında Haqq, Təbiət, Tanrıqulu, Tufan, Ustad, Yolçu, Tərəqqi, Naynay, Sovet, Sofu, Tello kimi adlar da yer alıb. Amma bu sənəd-sübut siyahıda nədənsə Hökumət adı yoxdur. Əlbəttə, bu, adi unutqanlıq da ola bilər. Çünki buralarda söhbət şəxs adından gedir. Yoxsa hökumətlə hökumətlikmi eləmək olar? Dövləti bilavasitə idarə edən icraedici və sərəncamverici orqanı deyirəm...

Orda ayla, illə, burda müxtəsər dillə...

...Süsən-Sünbül söyüşləri cəmi cahanda olmasa da azından Əyriqarın ətəklərinə yaxın şeypurburun məşhurdur. Amma Süsən-Sünbüldə son zamanlar daha dördayaq işlənən bir söyüş də var ki, onu indiyənəcən eşitmiş olarsan; yəni azından küləklər arazbarı çatdırmış olar. Bilirəm sənin də digər möminlərtək söyüşdən zəndeyi-zəhlən gedir. Axı söyüş Allahın altında ən aşağı məqam sayılır.

...Müxtəsəri, Süsən-Sünbüldə Hökumətə elə çoxmərtəbəli söyüşlər yağdırırlar ki, Sibir soyuqları sayağı adamın qanı donur; məsələn: adın batsın, ay Hökumət, səni görüm sabaha sağ çıxmayasan! Andıra qalasan, ay Hökumət, görüm səni qarayellər aparsın! Xeyrin şərə dönsün, pəjmürdə papağın da hərmədə qalsın, ay Hökumət!

Bu bir üzü də qarğışa bənzəyən söyüşləri bir yerə yığsan Qulammirzənin qancalmış qatırı da götürməz. Üstəlik, hətta tərzi-hərəkət zərfliyində belə, bu cür sürçütmə söyüşmü söymək olar?



Padşah da eyləmə tənbəllik, adam göndərdi ki, bəs deməzsənmi, belə deyək, gedin görün bu nə marksist məsələdir?

Adam da gəlib qayıtdı ki, padşah sağ olsun, Süsən-Sünbüldə sənin hökumətinə söymürlər, söyə bilməzlər axı! Çünki sənin hökumətin işləri məsləhət-məşvərət üstündə aparır. Süsən-Sünbüldə bir nəfər Hökumət Hökmdaroğlu adında fısqırıq feodal var. Süsən-Sünbüllülərə görə, yaman da mizantrop adamdır; sanki adamsevməzliyi, adamlara nifrət etməyi də elə bu yazıb-yaradıb. Hətta az qala belə çıxır ki, "mizantrop" ifadəsini də dünyalarca məşhur Molyer yox, o kəşf edib. Süsən-Sünbülün cəmi əkin sahəsinin səksən faizi ona məxsus olduğundan torpağı arendaya verdiyi eloğlularına da od qiymətinə satır. Tarixən mizantropların da pozitivi olub (məsələn, Conatan Svift, Artur Şopenhauer), amma o Hökumətdə bircə damcı da olsun hökumətlik, Mirzə Qələmin dili ilə desək, "rəhbərin xalq üzərində və xalqın rəhbər üzərində olan haqqından xəbəri yoxdur". Padşah sağ olsun, indi Siz gərək Süsən-Sünbüldə batili öldürüb haqqı diriltdəsiniz.

Padşahın əlindən nə gəlmirdi? Sərəncam (oğlunun adı Fərman olduğuna görə, daha fərman yox, sərəncam imzalayırdı) imzaladı ki, belə deyək, bəs deməzsənmi, adlar təcili surətdə dəyişdirilsin – Süsən-Sünbül də daxil olmaqla – təbəələrimə indən sonra yalnız və yalnız gözəl adlar qoyulsun; məgər Qiyamətdə bu adlarla çağırış olmayacaqmı? "Filankəs oğlu filankəs, qalx, öz nuruna tərəf get! Mizantrop oğlu mizantrop, otur, sənin nurun yoxdur"!

Hökumət Hökmdaroğlu da qaldı pəjmürdə papağının altındakı qara başına döyə-döyə. Həm "yeni torpaq islahatı" adıyla torpağını əlindən aldılar, həm də yeni əlifbaya keçid bəhanəsiylə adını-soyadını dəyişdirdilər.

...Sonra da bəzi ağzı Bağdad xirniyi boyda ağzıgöyçəklər deyirlər ki, belə deyək, bəs deməzsənmi, padşahımız ədalətsiz padşahdır... ay inandıq ha!..

**P.S.**

***Yüz dəfə demişdik, bu da olsun yüz birinci: ad adamı bəzəməz, adam adı bəzəyər. Qoy bəzən "yuxarı dairələr"ə, ya da kiməsə xoş gəlmək xətrinə uşağına xətirli ad qoyanlara dərs olsun! Hökumətin atası Hökmdar da hakimiyyətə yaxınlığını göstərmək naminə, dargalığını gözə çarpdırmaq üçün oğluna "Hökumət" adı vermişdi. Axırı axurda qalmadımı?***

***Aradan neçə müddət keçib? Bilmirəm. Eşitmişəm ki, köhnə Hökumət (keçmiş Hökumət Hökmdaroğlu) indi də paytaxtda təzəcə hakimiyyətə gəlmiş padşahın familinə keçmək istəyir. Onun babasının babası da hələ Sovetin sovet vaxtında razü-niyaz rəhbər İvan İvanoviç İvanova xoş gəlmək üçün nəvəsinə "İvan" adını (!) vermək istəmişdi. Amma soydaşlarının snobizmindən və... qapazından qorxmuşdu.***

***Adı hələlik dəyişdirilməmiş, yüz iki minnətlə hələlik saxlanılmış Süsən-Sünbüldə nələr olmur?..***

**İbrahimxəlil**

# Dünya yeni geosiyasi nizam axtarışında...

SSRİ-nin süquta uğramasından sonra təkqütblü sistemə (idarəetmə mərkəzinə) əsaslanan yeni dünya nizamı meydana çıxdı. Qloballaşma prosesinin geniş vüsət aldığı ilk mərhələdə yeni dünya nizamı daha çox iqtisadi və hərbi amillər üzərində inkişaf etməyə başladı. Lakin XXI əsrin geosiyasəti kontekstində meydana çıxan yeni siyasi trendlərə paralel olaraq qloballaşma prosesi qlobal idarəetmə çağırışlarını aktuallaşdırdı. Bundan sonra hegemon güclərin əldə edəcəkləri dünya hökmranlığını əsaslandıran nəzəriyyə və konseptual mənbələr ortaya çıxmağa başladı. Məsələn, meydana çıxan "Mondializm" konsepsiyası milli dövlətlərin funksionallığını itirməsi ilə mümkün olan "qlobal dövlət"in formalaşması və dünyanın vahid mərkəzdən idarə edilməsi missiyasını özündə əks etdirirdi…

Lakin qlobal idarəetmə prinsiplərinin sırf geosiyasi maraqlara müvafiq olaraq müəyyənləşdirilməsi, daha doğrusu, ortaya çıxacaq yeni geoiqtisadi trendlərin, qanunauyğunluqların nəzərə alınmaması yeni dünya nizamının perspektivini sual altına aldı…

***Yeni dünya nizamının rekonstruksiyası və ya dünya yeni geoiqtisadi transformasiya ərəfəsində...***

Bu mərhələdə geoiqtisadi transformasiyaya zəmin yaradan tendensiyalar müşahidə olunmağa başladı. Bəlli olduğu kimi, dünya iqtisadiyyatında əsas proseslər və qanunauyğunluqlar "G-7" adlandırılan iqtisadi nəhənglər tərəfindən müəyyən və idarə olunur. Belə olan halda, yeni dünya nizamının rekonstruksiyası və ya kardinal dəyişikliyi məhz bu faktorların iqtisadi qərar və hərəkətlərindən keçir. Bəs bu prosesi şərtləndirəcək potensial mexanizm nədən ibarətdir? Aparıcı strateji araşdırma mərkəzlərinin yekun qənaəti budur ki, bu, əsas etibarilə, yüksələn iqtisadi güclərin qərar və davranışlarından asılıdır. Bəs bu subyektlər hansılardır?



Araşdırmalar göstərir ki, ən yeni dünya nizamı məhz yeni iqtisadi qanunauyğunluqlar əsasında təşəkkül tapa bilər. Bu isə qeyd etdiyimiz kimi, qlobal iqtisadiyyata yeni nizam və inkişaf istiqamətləri gətirmək potensialına malik olan alternativ subyektlərin güc mexanizmindən asılıdır. İndiki mərhələdə bu, "G-7"yə alternativ olaraq göstərilən "E-7"nin (Braziliya, Rusiya, Çin, Meksika, İndoneziya, Türkiyə, Hindistan – "E" – emergency) timsalında səciyyələndirilir. Amma indiki mərhələdə həmin mexanizmin aktiv olması üçün dünya iqtisadiyyatının desentralizasiyası lazımdır, yəni idarəetmədə regional aktorların resursları səfərbər edilərək qlobal iqtisadiyyata təsir imkanları artırılmalıdır.

***İqtisadi subyektlərin geosiyasi rəqabəti kontekstində beynəlxalq münasibətlərin perspektivi***

Dünya iqtisadiyyatında belə bir potensial dəyişiklik, şübhəsiz, hazırkı hegemon güc mərkəzlərinin alternativ hərəkətlərini şərtləndirir. Bu, bir tərəfdən, hegemonluğun mühafizə olunmasına xidmət edirsə, digər tərəfdən, mövcud böhran meyllərinin aradan qaldırılmasına hesablanıb. Xüsusilə də, "Böyük Ortadoğu və Genişləndirilmiş Şimali Afrika Projesi"nin məhz indi yenidən aktuallaşmasının əsasında duran səbəblərdən biri də hegemon güclərin iqtisadiyyatındakı gizli böhranın aradan qaldırılması niyyətidir. Belə ki, lokomotiv dövlətlərin iqtisadiyyatı əvvəllər artım tempinə malik idisə, hazırda bu tendensiya müşahidə edilmir. Həmin kontekstdə yeni strateji həmlələrlə iqtisadi resursları nəzarət altına alan, eyni zamanda, əsas neft istehlakçısı rolunu oynamağa çalışan bəhs olunan nəhəng geosiyasi subyektlər dünya miqyasında iqtisadiyyatı neft qiymətlərinə bağlı olan yeni iqtisadi sistem formalaşdırmağa çalışır. Bu, hətta inkişaf etmiş ölkələr üçün də ciddi təhdid deməkdir. Bu strateji plan çərçivəsində, xüsusilə də Avropa İttifaqı (Aİ), Yaponiya hədəfə alınıb. Çünki hazırda Yaponiya neft ehtiyacının 80 faizini, Aİ isə 30 faizini bütün dünyadakı enerji ehtiyatlarının üçdə ikisinin cəmləşdiyi Yaxın Şərq və Şimali Afrika bölgəsindəki resurslar hesabına ödəyir.

***XXI əsrin geostrateji reallığı və ən yeni dünya nizamı***

Digər bir nüans odur ki, bəhs olunan qlobal siyasi-iqtisadi proseslər müasir beynəlxalq münasibətlər sisteminin nəzəri-konseptual bazasına da müəyyən təsirlər göstərməkdədir. Bütövlükdə, qloballaşma prosesi və "qlobal dövlət" ideyasının gerçəkləşdirilməsi istiqamətində həyata keçirilən strateji tədbirlər özü ilə beynəlxalq siyasi leksikona bir neçə yeni anlayış, ifadə və tezis gətirib:

1. Geosiyasi sivilizasiya – klassik sivilizasiya anlayışından fərqli olaraq dünya siyasi sisteminin hegemon aktorlarının siyasi mədəniyyətlərini ifadə edən anlayışdır;
2. Dünyanın siyasi paytaxtı – geosiyasi mövqeyinin radiusunun bütün dünyanı əhatə etdiyi hegemon güc mərkəzi (ölkə);
3. "İKT əsrində dünyanın mərkəzi, şərqi və ya qərbi yoxdur. Bu mərhələdə coğrafi cəhətlər şərti xarakter daşıyır";
4. Yeni dünya nizamı SSRİ-nin iflası nəticəsində formalaşmış təkqütblü düzən çərçivəsində yarandı. Ən Yeni Dünya Nizamında isə təkqütblü sistemin mərkəzində virtual məkana nəzarət edən geostrateji güclər duracaq. Bunlara "şəbəkə hakimiyyəti"nin (NETOKRATİYA) sahibləri demək olar;
5. Qlobal həyat tərzi – qloballaşma çərçivəsində təbliğ olunan homogen və hegemon mədəniyyət ünsürü. Bu təkcə mədəniyyətə aid deyil və siyasi, iqtisadi sahələri də əhatə edir. Məsələn, siyasi liberalizm milli dövlətlərin qlobal həyat tərzidir. Və ya bazar iqtisadiyyatı dünya ölkələrinin iqtisadi həyat tərzi kimi səciyyələndirilə bilər.

Əlbəttə, bu siyahını artırmaq mümkündür, amma təkcə sadalananlar da qloballaşma kontekstində dünya düzəninin dəyişikliyə uğradığını və yeni geostrateji dönəmə qədəm qoyulduğunu göstərir. Bu baxımdan, beynəlxalq münasibətlər sisteminin gələcəyi milli dövlətlərin ənənəvi funksionallığını itirməsi və qlobal idarəetmə mexanizminin yaradılması ilə müşayiət olunacaq. Bu, XXI əsrin geostrateji reallıqları kontekstində Ən Yeni Dünya Nizamı kimi dəyərləndirilər bilər.

**newtimes.az**

# Professor Pənah Xəlilovun 90 illik yubileyi qeyd edilib



Dekabrın 18-də Bakı Dövlət Universitetində (BDU) görkəmli ədəbiyyatşünas, tənqidçi və tərcüməçi, filologiya elmləri doktoru, professor Pənah Xəlilovun 90 illik yubileyinə həsr olunmuş respublika elmi konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, rektor, akademik Abel Məhərrəmov bildirib ki, Pənah Xəlilov 1948-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirib və uzun illər bu ali təhsil ocağı ilə bağlı olub. Pənah Xəlilov 1951-ci ildə filologiya elmləri namizədi, 1969-cu ildə isə filologiya elmləri doktoru elmi adına layiq görülüb. Pənah Xəlilovun Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafında müstəsna xidmətləri vardır. O,1973-cü ildə BDU-nun filologiya fakültəsində açılan "SSRİ xalqları ədəbiyyatı" kafedrasının ilk müdiri seçilib. Onun rəhbərliyi ilə 20 elmlər namizədi, 5 elmlər doktoru dissertasiyası müdafiə edilib.

Pənah Xəlilov ölkənin ümumtəhsil məktəbləri üçün bir sıra proqram və dərsliklərin hazırlanmasında yaxından iştirak edib. Onun akademik Məmməd Arif Dadaşzadə ilə birlikdə yazdığı "Ədəbiyyat" dərsliyi, professor Mir Cəlal Paşayevlə birlikdə qələmə aldığı "Ədəbiyyatşünaslığın əsasları" kitabı müxtəlif dövrlərdə dəfələrlə nəşr olunub.

Pənah Xəlilovun ölkəmiz və elmimiz qarşısındakı xidmətləri dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib. Görkəmli alim "Əməkdar müəllim" adına layiq görülüb, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsüdür.

Daha sonra Pənah Xəlilova "Gənc nəslin yetişdirilməsində göstərdiyi xüsusi xidmətlərinə, elmin, təhsilin inkişafındakı böyük roluna və anadan olmasının 90 illik yubileyi münasibətilə" Fəxri fərman, təhsil sahəsində göstərdiyi xidmətlərə görə Təhsil Nazirliyinin "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi döş nişanı" təqdim olunub.

Tədbirdə M.V. Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, AMEA-nın müxbir üzvü, professor Nərgiz Paşayevanın təbrik ünvanı oxunub.

Alimin həyat və elmi yaradıcılığına həsr olunmuş filmin nümayişindən sonra filologiya fakültəsinin dekanı, dosent Məhərrəm Vəliyevin "Böyük alimin şərəfli həyat yolu" adlı məruzəsi dinlənilib.

***Knyaz Aslan-55***

# Xalq yaradıcılığından bəhrələnən poeziya...

Knyaz Aslan poeziyasının pərəstişkarları olduqca çoxdur. Mən də sevirəm onun mənalı və sevgi, məhəbbət dolu poeziyasını! Onun poeziyası bütün poeziyasevərlərin xoşuna gəlib. Knyaz Aslan müasir dövrdə ən çox sevilən və oxunan şairlərimizdən biridir. Onun qoşmalarını aşıqlarımız oxuyur, hər məclisdə səsləndirirlər. Şair hər sözünü, kəlməsini ölçüb-biçir. Məhz bu səbəbdən o, yaddaşlara hopub. Məhz bu səbəbdən o, sevilir. Onun mövzusu elobadır, təbiətdir, sevgidir, sevincdir. Sinəsində min söz bulağı var şairin. Dindirsən, dinər, poeziyanın xoş kəlmələri süzülər dilindən. Knyaz Aslan poeziyasının gücü ondadır ki, bu poeziya xaq yaradıcılığından bəhrələnib. O, xalqın yaddaşında olan qiymətli fikirləri, deyimləri söz sərrafı kimi incələyib şeir xalçasına düzüb. Dilində mücərrədlik yoxdur şairin. Onun özü kimi, şeirləri, qoşmaları, sevginin ünvanına yazdığı məktubları şirindir, yaddaqalandır. O, şeirlərini qələmlə yox, lələklə yazır. Bu lələyi mən şairin yazdığı kimi, simvolik olaraq deyirəm. Yəni şeirləri boğazdan yuxarı gələn sözlər deyil, təbiidir. Təbiət isə gözəlliyi sevir, yarını-yaraşığını aləmə nümayiş etdirir:



*Durna qatarına açdım qəlbimi,*
*Dərdimi yazmağa lələk göndərdi...*

Şair dağlarımızı çox sevir. Onun hər şeirində dağ vüqarı, dağ əzəməti var! Hər dəfə şeir yazanda şair özünə qayıdır, keçmişlərimizin mərdliyini, mətinliyini, igidliyini xatırladır şair! Knyaz Aslan şeirinin sirri çoxdur! Oğul istərəm ki, onun şeirlərində verilən gözəlliyi duya, yazılan şeirlərin sirrini aça!

*Bir ümmandır hər sətir,*
*Sirri göylərdən dərin...*

Şair Knyaz Aslan Başkeçidin elə bir kəndində doğulub ki, təbiət öz şah əsərini burda yazıb və şairin ürəyinə bu şah əsərin misraları dolaraq yeri gələndə süzülür... Onun dilində nağıllarımız da poeziyaya çevrilir. Şair Bağda nənənin nəvələrini başına yığaraq bağda bardaş qurub onun dilindən eşitdiyi Çırtdan nağılını da şirin poeziya diliylə oxucuya çatdırır, hər kəlməni çözələyir:

*Bağda nənə taxtda qura bardaşı,*
*Nəvələri əyləşələr yanaşı,*
*Bir Cırtdandan, bir Fatmadan danışa,*
*Nağılları çözələyən söz ola...*

Onun poeziyasının nümunələri vaxtında yazılıb. Şair vaxtında zümzüməli çaylara, durna bulaqlara, qartallı dağlara, mərd insanlarımıza, kəndə-kəsəyə, elə-obaya, doğma Başkeçidə, Borçalımıza özünün mənalı şeirlərini həsr edib. Həsr edib ki, o da ulu Borçalı kimi yaşasın, ucalsın, bax beləcə mənalı-mənalı, hikmət dolu ömür sürüb Borçalı tarixində, Azərbaycan şeirinin, poeziyasının, xalq yaradıcılığının gur axan bulağından bəhrələnib ömür sürsün!

Knyaz Aslan yaradıcılığı dağlar qoynunda meydana gəlib. Onun şeir bulağı çağlayandır. Bu şeirlərin misraları yalçın qayalardan damcı-damcı süzülüb bulaqlara dönərək gur çaylar kimi çağlayır-coşur və böyük-böyük dənizlərə qovuşur.

Knyaz Aslan özünü təsdiqləmiş şairdir. Onun sevinci də, kədəri də, qəmi də poeziya dili ilə xoş səslənir, söz ahəngini vaxtında tutur şair! Onun qoşmalarında xalq deyimlərinin şirinliyi, söz-söhbəti, məclislərimizin müxtəlif çalarları görünür. Məhz bu səbəbdən Knyaz Aslan şeiri seviləndir. İnanıram ki, şairin müdrik kəlama dönən hər misrası gələcək nəsillərə ərmağan olacaq və o, tarixlər boyu öz qiymətini almış istedadlı şair kimi yaddaşlarda yaşayacaq...

Ürəyi sözlə dolu şair indi Bakıda yaşayır. Bakı Dövlət Universitetinin müəllimidir. O, Borçalıdan uzaqda yaşamasına baxmayaraq, hələ də elə bağlı, elə vurğun, hər sözündə, kəlməsində və misrasında Borçalını tərənnüm edir. Neçə-neçə məzmunlu kitabları, publisistik məqalələri işıq üzü görüb. Şeirlərini lələklə yazan, ürəyimizə saf ürəklə daxil olan və Azərbaycan ədəbiyyatında və milli mətbuatımızda görkəmli yer tutan istedadlı söz sahibi, jurnalist və publisist şairin 55 illik yubileyini biz də təbrik edir, ona daha böyük uğurlar arzulayırıq. Yaşa, yarat, şair! Qoy qələmindən xoş məramlı şeirlər süzülsün, saf duyğulu qoşmalar, gözəlliyi, məhəbbəti, sevgini vəsf edən sözlər süzülsün. Gözəl Azərbaycanımızı, baş. qarlı, min gözəllik məskəni dağlarımızı, düzlərimizi, dişgöynədən bulaqlarımızı, şaqraq səsli şəlalələrimizi bizə sevdir. Sevdir ki, gənclərimizdə Vətən, Torpaq, Ana sevgisi əbədiləşsin, sinəmizə vətənpərvərlik hissləri möhkəm yer tutsun, Vətənin işğal olunan torpaqlarını qarı düşməndən azad etmək üçün köhlən atlara süvar olaq!

**Nizami Məmmədzadə**

## Rəfi Seyfəddinoğlu: *“Bizim əsas vəzifəmiz xalqa xidmət etmək, onların maddi-mənəvi rifahının yaxşılaşdırılmasına nail olmaqdır.”*

*Rəfi Seyfəddin oğlu Orucov 1988-ci il sentyabrın 1-də Qardabani rayonunun Qaratəhlə kəndində anadan olub. 2006-cı ildə Qardabani rayonunun Qaracalar kənd orta məktəbini bitirən Rəfi Orucov elə həmin ildə də Moskva Dövlət Universitetinin Tiflisdəki filialının hüquq fakültəsinə qəbul olur. Rəfi Seyfəddinoğlu 2011-ci ildə Qardabani rayonunda fəaliyyət göstərən özəl hüquq şövbəsində hüquqşünas kimi ilk əmək fəaliyyətinə başalyır. 2014-cü ildə Gürcüstanda keçirilən bələdiyyə seçkilərində öz doğma kəndindən namizədliyini irəli sürür. Seçkilərdə qələbə çalan Rəfi Orucov Qaratəhlə kəndindən Qardabani rayon Sakrebulosuna deputat seçilir. Sonra o, rayon üzrə 34 deputat arasından Qardabani rayon Sakrebulosunun sədr müavini vəzifəsinə təyin edilir.*

*Ailəlidir. 2 övladı var.*



**– Rəfi müəllim, hakimiyyətdə olduğunuz müddət ərzində gördüyünüz işlər barəsində oxucularımıza məlumat verməyinizi xahiş edirik.**

– Biz hakimiyyətə gəldiyimiz zaman Qardabani rayonunda infrastruktur sahəsində bir çox problemlər var idi. Yolların acınacaqlı vəziyyətdə olması, səkilərin yararsız hala düşməsi, parkların uçub dağılması və bu kimi görüləsi işlər mövcud idi. Beləliklə də, biz artıq bu problemlərin həll edilməsinə start verdik. Belə ki, Qardabani şəhərindəki David Ağmaşenebeli adına baxımsız qalmış parkı əsaslı təmir etdirərək vətəndaşların istifadəsinə verdik. Bir çox şəhərarası küçələr isə asfalt döşəmə ilə təmir edildi. Mərkəzi küçənin səkiləri boyalarla bərpa olundu. Onu da qeyd edim ki, rayonumuzun müxtəlif kəndlərində mövcud olan problemlər də artıq bir neçə aydır ki, həll edilməyə başlanılıb. Ümumilikdə Azərbaycanlıların yaşadıqalrı 10-a yaxın kəndlərdə böyük layihələr həyata keçirilir. Nəzərli Kosalı, Ağtəhlə, Qaratəhlə, Candar, Təzəkənd, Muğanlı, Qaracalar və Birlik kəndlərdində avtobus dayanacaqlarının qurulması kəndarası yolların çınqılla bərpa edilməsi, bəzi küçələrə gecə işıqlarının çəkilməsi, əksər kəndlərdə uşaq bağçalarının bərpa edilməsi və ya yenisinin tikilməsi, kəndlərdə içməli su xətlərinin bərpa edilməsi və bu kimi işlər artıq aparılmağa başlanıb. Onu da oxucuların diqqətinə çatdırım ki, Gürcüstan Baş nazirinin müşaviri Savaln Mirzəyevin təşəbbüsü və xahişi ilə Azərbaycanlıalrın Gürcüstanda fəaliyyət göstərən “SOKAR” şirkəti tərəfindən Qaratəhlədə standartlara uyğun yeni idman zalının inşa edilməsinə də yaxın zamanlarda başlanılacaq. Bu da gənc nəslin sağlam ruhda böyüməsinə geniş imkanlar yaradacaq. Onu da diqqətə çatırmaq istərdim ki, hansı kənddə, hansı işlərin həyata keçirilməsində kənd deputatlarının böyük əməyi olur. Deputatlar bu problemləri rayon Sakrebulosunun iclaslarında qaldıraraq qarşılıqlı müzakirələrdən sonra həmin məsələnin həllini təsdiqləyirik.

**– Rəfi müəllim, vətəndaşlara, eləcə də soydaşlarımıza sosial sahədə dövlət tərəfindən bu günə qədər hansı yardımlar və ya köməkliklər olunub?**

– Sosial sahədə rayon Sakrebulosunun tərkibində xüsusi komissiya yaradılıb. Bizə müraciət olunan bütün ərizələr komissiya tərəfindən nəzərdən keçirilir. Sonra bəzi vətəndaşlara birdəfəlik yardımlar, bəzi vətndaşalra isə əməliyyatlarına, müalicəsinə maddi yardımlar edilir. Oxucuların diqqətinə çatdırmaq istəyirəm ki, 2015-ci ildə 1640 nəfərə birdəfəlik yardım, eləcə də 47 nəfərə əməliyyat edilməsi üçün köməklik edilmişdir. Biz hər zaman sakinlərin müraciətlərini qəbul etməyə və onlara dəstək olmağa hazırıq. Bizim vəzifəmiz əsasən, bundan ibarətdir.

**– Rəfi Seyfəddinoğlu, rəhbərlik etdiyiniz rayonumuzda gələcəkdə hansı işlərin görməsini planlaşdırırsınız?**

– Biz Qardabani rayonunun bütün kəndlərində müasir standartlara cavab verən uşaq bağçalarının yaxın gələcəkdə istifadəyə verilməsini planlaşdırırıq. Gələcəkdə biz infrastruktur sahəsinin genişlənirilməsini nəzərdə tuturuq. Yararsız yollar tamamilə asfalt döşəmə ilə təmir ediləcək. Rayonumuzda idman və təhsil sahəsinin inkişaf etdirilməsi, genişləndirilməsi məsələsi ən prioritet məsələlərimizdən biridir. Bu sahədə artıq geniş layihələr də hazırlanır. Biz Qardabani rayon Sakrebulosu olaraq, burada yaşayan əhalinin istər sosial, istərsə də infrastruktur sahəsində olan problemlərini həll edəcək, onları narahat edən problemlərlə tanış olaraq bu problemlərin aradan qaldırılmasına var gücümüzlə çalışacağıq. Elə rayon Sakrebulosunun da əsas vəzifəsi xalqa xidmət etmək, onların maddi-mənəvi rifahının yaxşılaşdırılmasına nail olmaqdır. Fürsətdən istifadə edib rayonumuzun sakinlərini Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni İl münasibətilə təbrik edir, ailə xoşbəxtliyi və işlərində uğurlar arzulayıram.

**Nadir Almazoğlu**

# Gürcü-Azərbaycan dostluq Salnaməsi

***/Layihə /***

M. F. Axundov adına Azərbaycan Mədəniyyət Muzeyində adı çəkilən muzey ilə Gürcüstan parlamentinin Milli Kitabxanası arasında memorandum yeni layihə haqda razılıq imzalanmışdır. Bu hadisə ilə əlaqədar olaraq muzeydə dialoq- görüş keçirilmişdir. Görüşdə Gürcüstan Mədəniyyət və Tarixi Abidələrin Mühafizə Nazirliyinin, Azərbaycanın Gürcüstandakı səfirliyinin təmsilçiləri, gürcü və azərbaycanlı ziyalılar, mətbuat və televizya işçiləri iştirak etdilər. Dialoq iştirakçılarını muzeyin direktoru Leyla Əiyeva təqdim edib salamladı və “Gürcü-Azərbaycan dostluğunu” əks etdirən salnamənin hazırlanıb çap olunması yönündə layihə üzrə işlərin başlanması haqda məlumat verdi. Gürcüstan Parlamentinin Milli Kitabxanasının direkor müavini Miriam Xositaşvili, bu layihə üzrə görüləcək işlərə və kitabxananın belə bir layihənin həyata keçirilməsinə dəstək olduğunu bildirdi. Layihə üzrə keçirilən diskussiyada bir sıra maraqli faktlar, təklif və rəylər irəli sürüldü, hətta fikir ayrılığına səbəb ola biləcək hallarla da üzləşildi.

Gürcüstan Azərbaycanlıları Ağsaqqallar Şurasının sədri, parlamentin keçmiş deputatı İsaq Novruzov belə bir salnamənin hazırlamasının zəruriliyini alqışladı və eyni zamanda qeyd etdi, bu tarixi kitab hansı dostluğu – Gürcüstan və Azərbaycan dövlətlərinin dostluğunu və ya Gürcüstanda yaşayan azərbaycanlıların dostluğunu -əks etdirməsi bu məsələ dəqiqləşməlidir, buna aydınlıq verimədilir. Əgər belə olmazsa, onda bir sıra iqtisadi, dini, ola bilsin, siyasi problemlərlə üzləşiləcək. Tanınmış radiojurnalist və tərcüməçi Emin Elsəvərin çıxışı çox maraqlı və özünün emosionallığı ilə seçildi. O bildirdi ki, əgər söhbət iki qonşu dövlətlərin dostluğundan gedirsə, onda çox müdrik və səbirli olmalıyıq. Ona görə ki, müasir dövrdə bu dostluq əlaqələrinin təməli Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyey tərəfindən qoyulmuş və hal-hazırda Azərbaycanın Prezidenti İlham Əliyev tərəfindən müvəffəqiyyətlə həyata keçirilir. Bu səbədən, bu işdə muzey müdiriyyəti çox diqqətli olub, dövlət səviyyəsində olan münasibətlərə müdaxilə etməməmlidir. Əgər bu təşəbbus yalnız ədəbi əlaqələr çərçivəsində olarsa, onda daha məhsuldar olar.

Oxucuların nəzərinə çatdırmaq istəyirəm ki, belə ideya və layihə vaxtı ilə ötən əsrin 70-ci illərində gürcü və Azərbaycan ədəbi həyatının görkəmli nünayəndələri olan tərcüməçi-filoloqlar Leyla Eradze və Dilarə Əliyevaya məxsus idi. Onlar iki qardaş xalqın dostluğunu əks etdirən bədii almanaxın hazırlanması üçün böyük yaradıcılıq işləri görmüşlər.

Azərbaycan ədəbi və tarixi həyatında böyük hörmətə malik olan, professor Quram Marxuliya bildirdi ki, gürcü-Azərbaycan dostluğunu əks etdirən tarixi faktların çoxluğunu bir salnamədə yox, ayrı bir kitab kimi də çap etdirmək olar, hər halda bu, iki xalqın dostluğunu əks etdirən yaxşı bir imkan və vasitədir. Gürcüstan müasir tarixi həyatında böyük nüfuz sahibi olan Petre Koçakidze bildir di ki, gürcü-Azərbaycan xalqının dostluq və qardaşlıq münasibələri haqda çox danışmaq olar, amma bunu bir sözlə tamamlamaq olar ki, tarixə bu iki xalqın bir-birinə qarşı ziddiyyəti və ya hər hansı bir münaqişəsi bəlli deyil . Bununla bağlı o, Marneulidə Gürcü çarı II İrakli dövrünün görkəmli sərkərdəsi olan Xudu bəy Borçalının heykəlinin qoyulması məsələsini də bir daha vurğuladı. Bu təşəbbüsü zənginləşdirən hekəltaraş Avtandil Mçedlişvili bildirdi ki, belə bir şəxsiyyətin hekəlinin hazırlanıb qoyulması məsələsinin gündəliyə çıxarılması çox önəmlidir. Mən iş təcrübəmdə bir çox azərbaycanlı şəxslərin heykəllərini hazırlamışam və mənə azərbaycanlı və azərbaycançılıq mövzusu çox yaxşı tanışdır. Bu işə mən əl qoyub bacarğımı göstərməyə hazıram, deyə o fikrini tamamladı.

Çıxışların əksəriyyəti iki qardaş xalq arasında dostluq münasibətlərinin zənginləşdirilməsinə, bu sahədə əməli işlərin həyata keçirilməsinə həsr olunmuşdur. Burada Gürcüstanda fəaliyyət göstərən dini mərkəzlərin işi və say məsələsinə də toxunuldu. Çox təəssüf ki, belə bir məsuliyyətli layihənin təqdimatında gürcü-Azərbaycan dostluq əlaqələrinin genişlənməsində məhsuladar və səmərəli fəaliyyət göstərən Azərbaycan Mədəniyyət mərkəzlərinin və həm də, Gürcüstan Müsəlmanlar İdarəsinin nümayəndələrinin iştirakı təmin edilməmişdir. Belə olan halda bu layihənin həyata keçirilməsi daha çoxşaxəli və səmərəli məznun kəsb edərdi.

**Qəhrəmanlar**

## Həlak olmuş neftçilər Gürcüstanda da anılıb

“Günəşli” yatağında baş vermiş yanğın zamanı həlak olan neftçilərin xatirəsi Gürcüstanda da anılıb. Gürcüstanın ali məktəblərində təhsil alan azərbaycanlı tələbələr və QHT nümayəndələrinin iştirakı ilə keçirilən tədbir SOCAR-ın nümayəndəliyinin qarşısında baş tutub. Tədbir zamanı “Günəşli” yatağının 10-cu platformasında baş vermiş qəza nəticəsində həyatını itirmiş Azərbaycan neftçilərinin xatirəsi anılıb.



Faciədə həlak olanlar bir dəqiqəlik sükutla yad edilib. Mərasimdə çıxış edən Azərbaycanlıların Mədəniyyət Mərkəzinin gənclər şöbəsinin müdiri Nərgiz Əliyeva dekabrın 4-də baş vermiş faciə ilə bağlı ətraflı məlumat verib və həlak olanların ailələrinə, yaxınlarına başsağlığı verib, xəsarət alan neftçilərə şəfa arzulayıb. İştirakçılar SOCAR-ın binası önünə gül-çiçək dəstələri qoyublar.

## 10 dekabr Beynəlxalq İnsan Haqları günüdür

Gürcüstan Xalq Müdafiəçisi Aparatı “Beynəlxalq İnsan Haqları” günü ilə əlaqədar Gürcüstanın bütün iri şəhərlərində, o cümlədən Aparatın regional ofislərinin yerləşdiyi ərazilərdə tədbirlər keçirmişdir. Belə bir tədbir Marneulidə də baş tutmuşdur. Tədbir çərçivəsində əhaliyə rəmzi hədiyyələr, vətəndaşlığın alınmasına, ailədə zorakılığa və erkən nikahların qarşısının alınmasına dair milli azlıqların dillərinə tərcümə olunmuş bukletlər və broşürlər, açıqcalar paylanmışdır.



Ombudsman Aparatının Kvemo Kartli üzrə nümayəndəsi Leyla Məmmədovanın fikrincə, bu əyani vəsaitlərin əhalinin öz hüquq və vəzifələrinin mənimsənilməsində və vətəndaş cəmiyyətinin formalaşmasında xüsusi əhəmiyyəti vardır.

## Tbilisidə Ulu Öndərin xatirəsi anılıb

Tbilisidə “Borçalı İrəli” İctimai Birliyinin təşəbbüsü ilə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin xatirəsi anılıb. Tədbir iştirakçıları əvvəlcə Tbilisinin mərkəzindəki Heydər Əliyev parkına gələrək Ulu Öndərin büstü önünə tər çiçəklər düzüblər. Sonra mərasim Tbilisi Beynəlxalq Akademiyasında davam etdirilib. Birliyin sədri Məhəbbət İmanov tədbiri açdıqdan sonra Ulu Öndərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tbilisi Beynəlxalq Akademiyasının rektoru, tarix elmləri doktoru David Çitaya çıxış edərək Azərbaycan-Gürcüstan dostluq münasibətlərinin inkişafında görkəmli siyasi xadim Heydər Əliyevin xidmətlərindən danışıb. Bildirilib ki, bu gün Azərbaycanın, Gürcüstanın və ümumilikdə regionun inkişafı Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun uzaqgörən siyasəti nəticəsində Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-



qaz kəmərləri çəkilib, Bakı-Tbilisi-Qars dəmir yolu, tarixi İpək Yolu və digər layihələr reallaşdırılır. İki dost və qardaş ölkələrimiz arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi də Heydər Əliyevin adı ilə bağlıdır.

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin gənclər şöbəsinin rəhbəri Nərgiz Əliyeva çıxışında deyib ki, tarixi şəxsiyyətlər heç vaxt unudulmur. Onların dövlətçilik, xalq, milli məfkurənin qorunub-saxlanılması yönündə xidmətləri tarixin ayrı-ayrı dönəmlərində bir mayak kimi işıq saçır, zəkalarının qüdrəti tezliklə özünü təsdiqləyir. Belə tarixi şəxsiyyətlərdən biri də ümummilli lider Heydər Əliyevdir.

Gürcü tələbə Daçi Çitaya Heydər Əliyev irsinin öyrənilməsinin vacibliyini qeyd edib. Bildirib ki, tarixi şəxsiyyət Heydər Əliyevin siyasi kursu, həyat və fəaliyyəti, keçdiyi şərəfli yol hər iki ölkənin gəncləri üçün örnəkdir.

Sonda ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib.

Tədbirdə Azərbaycanın Gürcüstandakı səfirliyinin birinci katibi Vüsal Məmmədov, akademiyanın müəllimləri, QHT rəhbərləri, azərbaycanlı və gürcü tələbələr iştirak ediblər.

**“RegionPress”**

# AZƏRRBAYCANLILARIN DOSTU



***Böyük gürcü yazıçısı Mixeil Cavaxişvilinin oxucuların marağına səbəb olacaq cib dəftərçəsinin tərcüməsini ixtisrla dərc edirik:***

**1924-cü il. 1 saylı cib dəftərçəsi**

* Bir nəfər gürcünün başını vurmalı idilər. Ona son söz verdilər.Üzünü qırxmağı, hamam, alt paltar, qəlyan tələb etdi. Sözümü sonra deyərəm, - dedi.

Nəhayət, dedi: «Yaşasın Gürcüstan!» və başını cəllada tərəf üzatdı.

* Fransa (fransız) və İngiltərə adı XV əsrdə meydana çıxdı. Gürcüstan, gürcü (birləşmiş) XI əsrdə Və (...).

* Gürcüstanın ürəyi hardadır? Hansı guşədə, şəhərdə, məhəllədə.

* Şah Abbas Gürcüstanı carmıxa çəkdi və Ketevana işgəncə verdi. Gürcüləri isə İrana köçürürdü. Bu gürcülər Quşçu sıra dağları ətəklərində Urmiya gölü yaxınlığında iki kəndin: Tamar və Ketevan kəndlərinin əsasını qoydular.

* Cüyürü və kəpənəyi arabaya qoşmaq olmaz.

* Qəhbə öz keçmişini unuda bilmədiyi kimi unutmağı çətin olan belə bir cinayət vardır. Ona da ümidsizlik, inamsızlıq, təhqir, əfv, biganəlik əlavə olunur.

* Vəzifə elə bir panduridir ki, onu şeytan da tez- tez çalır.

* Daim öz içinə baxan kəs, daim də bir vəhşini görür və peşmançılıq çəkir, elə özözünü mühakimə edir, narahat olur, əzab çəkir.

*Nəyəsə dəlilsiz inana bilərsən, lakin inamsızlıq və şübhə dəlilsiz ola bilməz.

* Cinsi instinkt qar uçqunu kimi gəlir. Qanun, namus, qanacaq, qorxu- hər şeyi çürük çit parçası kimi cırır.

* Camaat ikonaya inanana qədər calalarda da saxlanılırdı. İndi calaları kəsib doğradılar.

* Yalnız səhlənkarlar üçün həyat qiymətlidir və yalnız onlar onun qiymətini bilir.

*Heç kimi aldatma: Nə dostunu, nə qadını, nə xalqı və ya bir kimsəni. Qapıları, xəzinələri açıq qoyma, dostun arvadını və başqalarını acıqlandırma. Belə ki, namuslu da aldanar və aldana bilər, əgər ki, qadının döşlərini görsə və ya açıq xəzinəyə rast gəlsə (təkmilləşdirilsin).

**1924-cü il. 1/2 saylı cib dəftərçəsi**

* Qadın kişiyə tabedir. Lakin eyni zamanda ona sərəncamlar verir.

Bizim şəhərimiz ona görə dağılır ki, nəhəng şeyləri təqib edirlər (Damba, körpü, Qocor yolu, Hamamlar məhəlləsinin dağıdılması) və xırda şeyləri isə unutmuşlar. (tramvay, küçə, tikinti). Nəhəng şeylərin və xırdavatların nəzəriyyəsi.

* Teymuraz Xevistavi deyir: Bizim həyatımızın məhvəri və sirri ondadır ki, hakimiyyət və camaat birbirilərini aldadır. Buna görə də bu aldatma böyük bir elmə və şeytanlığa çevrilmişdir.

* Dərin düşünməkdən qaynar ürək artıqdır. Qriqor Orbeliani düz deyib.

* Kim ki, şəxsi mülkiyyəti inkar edir, o, həqiqətdə ali qanuna qarşı mübarizə aparır. Belə ki, həmin qanunda deyilir: Mən canlıyam, istəyirəm canlı olum və yaşayım. Şəxsi mülkiyyət də bu «yaşam»dır, başqa heç nə. Sosializm isə bu həyatla mübarizə aparır və onu məhv edir. Ey insanlar, bunu dərk edin!

* Bir nəfər məğlub knyaz lohan dərddən öz evi ilə palıd ağacı arasında yüz addımlıq məsafəni o qədər gedib gəldi ki, yol tapdandı. O yolda bir dənə ot da belə daha çıxmırdı. Sonra bir zülmət gecədə o, ata minib yoxa çəkildi. Satqının üzərinə hücum etdi. Köklüköməcli onu yandırdı, yaxdı. Əzişdirdi və Dağıstana keçdi. Bir neçə ildən sonra nayiblik qəbul etdi və oranın qoşunu ilə bura gəldi ( Buradan «Şamil» romanı başlansın).

* Bu günkü gürcü yazıçılığı, incəsənəti və elmi də, ən az müstəsna haldan başqa, Moskvanın bicidir. Öz gürcü mənəviyyatı çox nadir hallarda hardasa görünür. Yalnız tam azadlıq bu yad qanı rədd edə bilər. Yalnız polad gürcü romantikası bunu tamamilə müalicə edə bilər, lakin bunun üçün bizim ətrafımızda və bizim mənəvi-fiziki həyatımızda da həqiqi sağlamlaşdırıcı kataklizmin baş verməsi lazımdır. Biz isə özümüzə istinad etmirik və buna görə də intizar çəkməkdən başqa heç nəyimiz qalmamışdır.

* Gürcü xalqı həmişə bir-birini yeməklə harınlaşmışdır.

* Həddindən artıq düşünən adam tez-tez həqiqəti görmək əvəzinə düşündüyünü görür.

* Kim kişidirsə, bu mövzuda təhqiqat aparsın: Gürcü nəsrində və poeziyasında kişiliyə pərəstiş. Bu əsas məhvər bərpa olunmalıdır, yoxsa tamamilə məhv olarıq.

* Ailə küçəyə çıxdı və küçə ailəyə soxuldu.

* Kim oxuyursa, o yaxşı bilir ki, insan yalnız şüuru ilə deyil, bütün varlığı ilə oxuyuryaradıcılıq barəsində də eyni şeyi demək olar.

* Öpüləsi əl daha görünmür. Bəzi qadın mürəkkəbə bələnmişdir. Bəzisi odda yanmışdır və bəzisinin də əlləri qabar-qabardır.

**1925-ci il. 3 saylı cib dəftərçəsi**

* İt var öz qapısında başqa itə hürür. Qərib it, nə qədər güclü və xırçın olsa belə, evin iti onu susduracaqdır.

* 1925-ci il 28/VIII. Bakurianidə Mariamoba və il mərasimi idi. Qohumlarının güllələndiyi yüz nəfər olardı. Lakin mərasimdə bir-iki qoca və beş-altı uşaq iştirak etdi. Bu hadisənin dərinliyi və mənası hədsizdir. Elə bu günlərdə adi bir mahnı. Düdük. Zurna.

* Elə sadə və gözlənilməz hadisə var ki, düşüncəyə, iradəyə, plana nisbətən onun həyatda min qat artıq gücü vardır. Bu ideya mənim yazılarımda həyata keçirilsin.

* Saysız-hesabsız portfel və avtomobil, on qat artıq ac və dilənçi, elektrik stansiyaları və çılpaq camaat, amerikaçılıq və araba-Bax, budur, bizim həyatın mənzərəsi.

* Ana Kür! Üç min ildir ki, qızarırsan. Bu gün nə qədər qırmızı parça tapılıbdırsa, sənin sahillərinə sərmişlər, lakin hər halda qızarmadın. Qanına görə isə qırmızısan.

* Bericaşvili-İlyanın qatili 1925-ci ilin oktyabrında Gürcüstan Mərkəzi Komitəsinin üzvü seçilmişdir!!!

* Cəsurluq enerjidən üstündür. Cəsur Qurucu David idi, Georgi Saakadze, II İrakli enerjili idi.

**1925-ci il 4 saylı cib dəftərçəsi**

* Gecə şəhərin saysız-hesabsız gözü vardır-Limon rəngində, sonra onun nəfəs alması azalanda, gözlərini də yumur.

* Filankəs deyəcəyi sözü tülkü kimi başlayır və uzunqulaq kimi bitirir.

* Bizdə namuslu insanı tapmaq, Berlində (və ya əksinə) bit tapmaq kimi çətindir.

* Xoşbəxt insan üçün şaxtalı qış da yazdır.

* Bir nəfər qozbel başqası ilə görüşdü: «Donqarını necə rədd etdin». O da öyrətdi: « O səhrada dağıdılmış hamam vardır. Get, ora, şeytanlar çıxacaqlar. Nəyi desələr, sən də onu təkrar et». Getdi, şeytanlar çıxdılar. Deyib gülürdülər: « şənbədir, şənbə». Qozbel də oynadı: « Cümə axşamıdır, bu gün, cümə axşamı». Həqiqətən cümə axşamı idi. Şeytanların səbr kasası daşdı. Birincisinin donqarını çıxartdılar və onu da onun üstündən qoydular. Gəldi və düşünürdü: Nəyimə lazım idi, həqiqət üçün ikinci donqarı artırdım, deyərdim, şənbədir, vəssalam və donqardan da xilas olardım».

* Yaz sizin qanınız qaynayanda gəlir. O süstləşdisə, qaranquş, yarpaq və çiçək də yazı gətirə bilməz (təkmilləşdirilsin).

**1926-cı il. 5 saylı cib dəftərçəsi**

* Qadından məhəbbəti alsan, əlində bircə boş donu qalacaqdır.

* Şərqdə gülman meymunu bağları, əkin sahələrini məhv edir, lakin heç kim ona toxunmur- müqəddəsdir. Bizdə-mətbuat və nazikbaldır solçu yazıçılığı da gülman meymunudur.

* Abır, həya, utancaqlıq hissi olan kəs həmişə rahat danışmalıdır.Təm-təraqla yalnız qəhbələr, demoqoqlar və şairlər söyləyirlər.

**1927-ci il. 8 saylı cib dəftərçəsi**

* Bəzi şair (Q. Tabidze, Juruli və başqaları) qırmızı şeirlər yazır. Sonra xəlvətcə nəşriyyatda onu ağardır. Hay-küy qopur. Nəsə daxildən onları sıxır. Başqa nəsə demək istəyirlər. Əzab, əziyyət çəkirlər.

* Gürcü ziyalısı xaricə gedəndə, oranın dilini, ədəbiyyatını, ifadəsini canfəşanlıqla öyrənir, gürcü dilini isə öyrənmir. Anası nə öyrətmişdirsə, təkcə onu bilir.

* Dilin lüğət tərkibi kasıblaşır. Köhnə sözləri təqib edirlər. Onun əvəzini gətirə bilmirlər. Milli məktəb işlərinin və gürcücə işlərin görülməsində yeni çox şey gətirmişlər, lakin bədii lüğət tərkibini nəzərə alsaq, kasıblaşır.

**1927-ci il. 9 saylı cib dəftərçəsi**

* Məhəbbət dünya ədəbiyyatında ölməz mövzudur, lakin bu günkü gürcü ədəbiyyatının bir mövzusu da var, nisbətən daha yüksək, dərin və güclü – « Gürcüstanın taleyi». O, bizim yaradıcılığımızın məhvəri olmalıdır. Lakin məhz elə o ciddi təqib olunmuş və qadağan edilmişdir.

* İndi kim ki, qız sevir, daha ah-vay etmir. Tariyel kimi keçilməz meşələrə soxulmur və aya hürməklə özünü bezdirmir. Özünü göstərir, əlindən tutub həyatın burulğanına salır.

* Vətənoğlünun kabinetində, dövlət nəşriyyatında, sanki bir ildir ki, İlya Çavçavadzenin böyük portreti durur. Divardan onu asmağa cürət edə bilməmişdir. Vaxtı gözləyir. Bu da əsri xarakterizə edir.

* Havada milçəklər yığımı üzür, sanki görünməz saplarla asılmışdırlar.

**1931-1933-cü illər. Apreldək**

* Qadını güllələnməyə apardılar. O, hər halda bəzənirdi.

* İqtidar xalqa sükutun ən ağır elmini və ən qədim sənətini öyrətdi. İqtidar kəndə gedir və başlayırdı cəfəngiyat söyləməyə. Xalq isə susurdu.

- Məktəb istəyirsinizmi?
- Sükut.
- Sizə kooperativ yaratmalıyıq, şənlənəcəksiniz.
-Yenə sükut.
- Geyindirəcəyik, kecindirəcəyik (hər halda yenə sükut, daim sükut, yalnız sükut).

**1935-ci il. 10 saylı cib dəftərçəsi**

* Tanrı Gürcüstana nəzər yetirsə, ağlayar.

* Dəlini hamı sevir. Sarsaq xətərsizdir. Ağıllıdan hamı ehtiyat edir, çəkinir.

* Gürcüstanın daxili azadlığı olmadığından dini axtarışı yoxdur.

* Mən yazıçı, bu gün qəbiristanlıqda yaşayıram. Ətrafım ah-vay və qəm-qüssədir. Mənə deyirlər, nəsə qəhrəmanlığa aid bir şey yaz. Əgər başqaları ilə birlikdə yas saxlasam, başıma qaxarlar, əgər ağzımı açsam-xəcalətdən yerə girərəm. Dinməz və dərdliyəm.

* Rusiya böyük müharibədə və bolşevizm ilə toqquşmada ona görə məğlub oldu ki, öz milli burjuaziyası yox idi. Bizi də belə bir tale gözləyir, əgər...

* Mənim Tiflisim, sənin sifətin olsa idi, hələ tüpürərdim, sillə vurardım. Sonra ayaqlarına döşənərdim, dizlərindən öpərdim və uşaq kimi ağlayardım.

* Gürcülərin üç şeyi əksikdir: Milli özünü dərketmə, həqiqət intuisiyası və əmək qabiliyyəti.

* Tiflis milyon gürcünün saf sümükləri üzərində tikilmiş çox gözəl, ağ bir məbəddir. Lakin bu müqəddəs kilsədə iki yüz min hiyləgər yaşayır. Ağ Georgi gəlməli və bu murdarlaşmış yeri təmizləməlidir. Yalnız onda tam ruhumla içəri daxil ola və səmimi qəlbdən gürcü Tanrısına dua edə bilərəm.

* Gürcü heç vaxt qadını döyməz. Və ordaburda şəhərlilər öyrənibsə, bu da rusların gətirməsidir.

* Problem. Amazonkalar niyə məhz Gürcüstana-Kolxidaya gəlib çıxdılar? Ona görə ki, qadınlar kişilərdən güclü idilər. Yoxsakişilər çox zəiflədi? Sözsüz ki, ikinci səbəb daha doğrudur (yəhudiləri müqayisə edək).

* Qadın-kişinin mütənasibliyi üçün kişinin qadınlaşmağı, qadının kişiləşməsi lazımdır. Bu da uduzacaq, o biri də.

**VAR OLACAQSAN**

*Mixeil Cavaxişvilinin doğulduğu Serakvi kəndində (Marneuli rayonu) qanın əks olunduğu qəbir daşında bu sözlər yazılmışdır: «Burda böyük gürcü yazıçısı Mixeil Cavaxişvili uyumur, burda onun ruhu dolaşır».*

O, torpağa gömülmədi,
O, torpağa sınılmadı,
Amma sevgisi boyda torpaqdan,
Serakvidən, Borçalıdan
Ruhu əsla danılmadı.
Qələmi Xramda isladardı.
«Günahsız Abdulla»nın bayatılarında,
Borçalının füsunkar gözəlliyindən,
Söz-sənət tamı dadardı.
Qələmi ilə, ruhu ilə yazar oldu,
El-obasının dərdini yazan yazar.
Qəlbi,mürəkkəbi, hey dolu oldu,
Gürcüstanın taleyini yozan yazar.
Sənə min rəhmət, ay Mixeil,
Abdullanın təbirincə, ay Mikeil,
Bizdə belə bir deyim var:
«Desəm,öldürərlər, deməsəm, öllәm».
Sən dedin həqiqəti,öldürdülər,
Ölümlə ölməzliyi böldürdülər.
Ölməzlik oldu qismətin.
Həmişəyaşar, ölməz oldu
Doğma yurda məhəbbətin.
Sən ölmədin, ölməz idin,
«Otuz yeddi»nin iç üzünü,
Duymaz idin, bilməz idin.
Eh, Mixeil, eh, Mikeil!
Qəbir sənə yar olmadı
Doğma vətən torpağında.
Bu da sənə ar olmadı
Həyatın sərt sınağında.
Eh, Mixeil, eh, Mikeil!
Sənin qəbrin el-obanın özündədir,
Sevgi dolu, məhəbbət dolu sözündədir.
El-obamız qaldıqca,
Çağlayan sənətimiz duruldquca,
Özümüz, sözümüz olduqca,
Dünya seyrə daldıqca,
Sən varsan, var olacaqsan,
Daim bizimlə qalacaqsan.

**Mirzə Məmmədoğlu**

# Əyriqarda affirmasiyalarla yaşamaq

### *(introversiya)*

Azərbaycan Yazıçılar Birliyinin 80 illiyində – yazıçıların XII qurultayında gördüyüm Yevgeni Reynin "Şifrovka" ("Шифровка") adlı cəmi 16 misralıq şeiri var. Həmin şeiri dəfələrlə oxuduqdan sonra vaqifanəlikdə ancaq şairlərin şifrlərlə, venzel-monoqramlarla, Koelyonun "Kimyagər" romanı misallı, namələrlə-məktublarla, əlbəttə, "gizlin yazı"lı namələrlə yaşaya bildiyi və hələ lap uzun müddət yaşaya biləcəyi mənə bir daha ayan oldu. Bakıdan agah qayıdıb düzilqarlı Əyriqar yoluna çıxdım. Əyriqarın bizim dağların bir düzilqarlısı olmağı öz yavuz-yalqız yerində. Yol-ərkan təvazökarlıqdan uzaq düşməsin: Əyriqar həm də Mirzə Qələmin və mənim ədəbi ərazimizdir...

Bakıda mənə bərk yer eləyən hətta bəzi yazıçılar və şairlər üçün də "sistem"in deyil, adların önəm daşıması idi. Yəni nə karvanın, nə qatarın, nə də gəminin vəziyyəti onları qətiyyən maraqlandırmırdı. Onlar ancaq sarvanı, bələdçini və gəmiçini dəyişdirmək istəyirdilər.

Mən qurultaya nə seçkilər üçün, nə də bir qədər arazbarı da olsa, alqışlar (məsələn, Borçalıda adına alma ağacı əkilən, ədəbiyyata namuslu münasibəti ilə seçilən və onda yaşam mücadiləsi verən Vaqif Səmədoğlunu alqışlamaq), ya da tutaşma təpkilər üçün getməmişdim. "Mirzə Qələmin son yarpağı"nda da ötəri toxunduğum kimi, vegetativ-damar distoniyasından əziyyət çəkən Mirzə Qələmin sözünü yerə salmayıb bir növ onun yerinə getmişdim; bu bir. İkincisi, Sınıq körpünün bəri üzündə, Əyriqarın ətəklərinə yaxın bu dəvəti vurulan bir tel, bir şifroqram, bir gizlin yazı-namə, bir "şifrovka" bilib getmişdim Bakıya. Amma sən demə ədəbiyyatı da adi sistemə qoşmaq, bədii həyatı dəbli həyətə çevirmək istəyənlər hələ də çox imiş. Sən Sınıq körpünün bəri üzündə, Əyriqarın ətəklərinə yaxın bunların – bu şifr-şifroqram müəlliflərinin həsrəti ilə yaşayırsan, unudulmaz İvo Andriç misallı, bu "şifrovka" müəlliflərinin hər birinin təhkiyəsinin canındakı ruhlarını – sıxıntıların da sızdığı ruhlarını – öz arazbarı ruhunda daşıyırsan, bunların bəzilərinin faciəvi fikrində isə və ancaq Natəvan klubunu yerlə-yeksan eləmək dolaşır... Bir soruşan olmadı ki, qardaş, Sınıq körpünün o üzündə nə var-nə yox, heç olmasa, Əyriqar yeindədirmi?

Onlara Əyriqarda affirmasiyalarla necə yaşadığımızdan söz açmaq istəyirdim; açığı, çox istəyirdim. Qurultayda Gürcüstandan dəvət almış yazarlara söz verilməmək öz "yastıqəlsəməli" yerində. Hələ bu azmış kimi, imzaları üçün arada-sırada sinov getdiyim üç nəfər qələm sahibi isə elə üz göstərdi ki, Mirzə Qələm demiş, hissi idrakım rasional idrakıma qarışdı.



...Yevgeni Reynin "Şifrovka"sına qayıdıram. Bu bilistinad bənd də həmin şifrləmə şeirdəndir:

*...а я отвечу вам*
*фонариком на Морзе.*
*Летите к берегам*
*мерцайте на морозе...*

Arada-sırada sözlə deyə bilmədiyimizi sazla necə deyiriksə, eynən həmin oxşar minvalla, Sınıq körpünün sıxıntılar dolu bəri üzündə gərək hərdən-birdən Morze əlifbasında, hərdən-birdən şifrlərlə, hərdən-birdən nabəgah namələrlə, hərdən-birdən fənərin sayrışan işığı ilə danışasan; təkcə danışmaq arazbarı azdır, gərək həm də yazasan... Həm də gərək kimsə can Azərbaycan tərəfdən Sınıq körpüyə öz sehrli və şəfalı əlləri ilə sığal çəkə və qeybdən gələn gözəl səstək səs eşidilə:

– Təki siz Sınıq körpünün bəri üzündə sayrışın, titrək də olsa, təki siz işıq saçın, təki sizin işarəli işartınız olsun! Axı burası ədəbiyyatdır! Ədəbiyyatdır (varlıq), amma ədəmiyyət (yoxluq) deyil. Axı bu, doğrudan da kərəmkaranə könül məsələsidir! Yazışı dostum, "qiyamçı" qardaşım Əlabbas demiş, "... bu gün bizdə ən kasıb kişinin dəstərxanına bənzəyən ədəbiyyat süfrəsinin qırağını qırx beş il əvvəldən tanıdıqlarımın bircəciyi də tərk etməyib". Bu təsəlliyab tənhalığı tərk eləməkmi olar? Bəs şifrlər? bəs şifraçanlar? bəs zöhrəcəbin zəriflik? Axı başqa cür öz ömrünün, öz həyatının müəllifi necə ola bilərsən? Necə Özün ola bilərsən?..

Qayıdıb Mirzə Qələmə şikayət "ərizə"mi göstərəntək:

– Səndən heç gözləməzdim, – dedi, – elə bilirsən sən incidiyin qələm qardaşların bizdən yaxşı gündədirlər?.. Elə bilirsən Bakı boyda paytaxtda o qədər yazıçı basırığında yaşamaq asandır? Oralarda təki namələri, şifrləri, dəstərxanları yerində olsun!..

**P. S.**

**Mən sizə affirmasiyalardan (lat. *affirmatio*) danışmaq istəyirdim. Sınıq körpünün bəri üzündə Mirzə Qələmə də, mənə də çox kömək olan, özünəinam hissini möhkəmləndirən, psixoemosional fonu yaxşılaşdıran affirmasiyalardan... Özün üçün günü sabahdan ola biləcəkləri indiki zamanda baş verənlər kimi təsdiqləmək, təsdiqləyib altına möhürbənd də qoya bilən affirmasiyalardan... Və affirmasiyaların təkrarlanması zamanı ( məsələn: *mən yaxşıyam, hər şey öz qaydasındadır, sabah bundan da yaxşı olacaq və sairə*) duyğular aləmində zərrə qədər şəkk-şübhəyə, ziddiyyətə yer olmamalıdır. Ona görə də köməkçi nitq hissəsi olaraq "guya" modal sözündən istifadəyə ehtiyac duymadım... Diri və duru qalın!..**

**İbrahimxəlil**

# Xiyalov Xəyal: *Bir həkim kimi isə hər kəsə həyatda sağlam bədən və sağlam ruh arzulayıram*



**Oxucularımıza Qardabani rayonunun Vaxtanqisi kənd xəstəxanasının baş həkimi Xiyalov Xəyal Məmməd oğlunun tərcüməyi-halını təqdim edirik:**

*Xiyalov Xəyal Məmməd oğlu 1965-ci ildə Qardabani rayonunun Kosalı kəndində ziyalı ailəsində anadan olub. Xəyal Məmməd oğlu 1982-ci ildə orta məktəbi bitirdikdən sonra, ali təhsil almaq üçün Azərbaycana gedir. Elə həmin ildə də Bakı şəhərindəki Nəriman Nərimanov adına Dövlət Tibb Universitetinə qəbul olur. 1988-ci ildə ali təhsil alan eloğlumuz həkim kimi azad təyinatla öz doğma elinə qayıdır. O, ilk əmək fəaliyyətinə də Qardabani rayon mərkəzi xəstəxanasında başlayır. Bir müddət rayon xəstəxanasında həkim işləyən Xəyal Məmməd oğlu sonradan Azərbaycan-Gürcüstan sərhəddi ərazisində yerləşən Vaxtanqisi kənd ambulatoriyasına baş həkim təyin edilir. 1995-ci ildən bu günə qədər Xəyal Xiyalov xəstəxananın həm baş həkimi və eyni zamanda, həmin kənddə ailə həkimi kimi fəaliyyətini davam etdirir.*

*Ailəlidir. 1 övladı var.*

**Xəyal həkim, çalışdığınız xəstəxana barəsində oxucularımıza məlumat verməyinizi xahiş edirik.**

Digər kəndlərdən fərqli olaraq, Vaxtanqisi kəndi rayonumuzun ən çoxmillətli kəndidir. Bu kənddə azərbaycanlılarla yanaşı gürcülər, yunanlar, ruslar, almanlar, ukraynalılar və digər millətlərin nümayəndələri yaşayırlar. Onu da bildirim ki, bu kənd sərhəd ərazidə yerləşdiyinə görə, biz həm də sərhədçilərimizə də xidmət göstəririk.

Kənddə 3000-ə yaxın əhali yaşayır ki, onlarında 850 nəfərini 15 yaşadək olan uşaqlar təşkil edir. Qalan 2000-ə yaxın vətəndaş isə orta və yaşlı nəslin nümayəndələridir. Kənd sakinlərinin sağlamlığını təmin etmək üçün 2 briqadamız fəaliyyət göstərir. Qeyd edim ki, biz hər zaman ailələrə baş çəkir. Vətəndaşların müayinəsini edirik. Mütəmadi olaraq sakinlərimizin sağlamlığını nəzarətdən keçirərək, onları ilkin müayinə və müalicə ilə təmin edirik.

**Xəyal Məmmədoğlu, vətəndaşlara bir həkim kimi tövsiyəniz və arzunuz nə olardı?**

İlk öncə hər bir şəxsə arzum budur ki, sağlam olsun. Hər kəs özünün sağlamlığını qorumalı və daima onun keşiyində durmalıdır. Bu gün bir çox vətəndaş gündəlik həyat tərzi ilə əlaqədar, öz sağlamlıqlarına o qədər də diqqət yetirmirlər. Xəstəliyin qarşısı isə zamanında alınmalıdır. Vaxtında onun qarşısı alınmadığı halda o, böyük fəsadlarla nəticələnə bilir. Ona görə də hər bir vətəndaşdan istəyim ondan ibarətdir ki, mütəmadi olaraq həkim nəzarətindən mütləq keçsinlər. Belə bir addım atmaq vətəndaşların sağlamlığının qarantıdır. Bir həkim kimi isə hər kəsə həyatda sağlam bədən və sağlam ruh arzulayıram.

**Nadir Almazoğlu**

# Ekspert Hacı Quliyev Azərbaycan xalqının ünsiyyət mədəniyyətindən danışdı

Milli-mənəvi dəyərlərimiz azərbaycanlılar tərəfindən dünyada necə qorunub, saxlanılır? Təbii ki, bu mövzu hər bir azərbaycanlı üçün maraqlıdır. Elə bu səbəbdən də ailə məsələləri üzrə ekspert Hacı Quliyevin təşəbbüsü ilə "DTV" telekanalında aparıcı Samir Bayramlının təqdimatında yayımlanan "Tam səmimi" verilişində mövzu ilə bağlı danışılıb. Verilişin fəxri qonaqları olan Hacı Quliyev və onun yaxın dostu, Rusiya Federasiyası Dumasının əməkdaşı Ramin Qasımov maraqlı fikirləriylə diqqət çəkiblər.

H.Quliyev Azərbaycan xalqının ünsiyyət mədəniyyətiylə bağlı danışaraq, bəzi məqamları xüsusi qeyd edib:

"Bizim xalqın əhvalının yüksək olmasına səbəb nədir? Buna cavab olaraq deyə bilərəm ki, başqa xalqlara nəzər salsaq, yalnız problemi, dərdi olarsa, psixoloqa müraciət edirlər. Daha sonra da məsələni araşdırırlar, səbəbləri ortaya çıxarırlar. Bizim millətin ən gözəl xarakterlərindən biri də odur ki, ünsiyyət mədəniyyəti çox güclüdür. Biz qohumlarımızla, yaxınlarımızla, tanımadığımız insanlarla çox gözəl ünsiyyət qura bilirik, hətta sosial şəbəkələr vasitələriylə bütün dünya azərbaycanlıları bir-biri ilə əlaqə saxlayırlar. Təbii ki, bu, sevindirici haldır. Bizi qoruyub-saxlayan da, birliyimizdir və dəyərlərimizdir. Bizim qədər bir-birinə arxalanan millət yoxdur. Qonaqpərvərliyimiz, istiqanlılığımız, işgüzarlığımız və başqa bu kimi amillər buna misal ola bilər."



R.Qasımov isə Azərbaycan kişilərinə müraciət edərək bildirib ki, Azərbaycanda yaşayan ailələrinə sadiq qalsınlar:

"İnsanlar Rusiyaya işləmək üçün gedirlər. Amma Azərbaycan kişiləri unutmasınlar ki, onların ailələri, uşaqları burada-Azərbaycanda yaşayırlar. Elə kişilər var ki, gedirlər, 5 ildən çox heç əlaqə saxlamırlar. Yazıq qadınlar da həyat yoldaşlarını axtarmağa başlayırlar və yaxud da bunun üçün telekanallara müraciət edirlər. Bu, həqiqətən də böyük problemdir. Sizə deyim ki, yüzlərlə məktub alırıq. Amma elə insanlar var ki, mən onları anlaya bilmirəm."

RF Dumasının əməkdaşının bu fikrinə H.Quliyev də dəstək olub. O, Azərbaycana gələn Rusiya xanım millət vəkillərinin təəssüratlarını bölüşüb:

"Rusiyadan Azərbaycana xanım millət vəkilləri gəlmişdi. Onlar bizim ailə həyatımıza, yaşayış səviyyəmizə nəzər yetirirlər və deyirdilər ki, kaş biz də Azərbaycan xanımları olardıq, bizim də belə şansımız olardı. Həyat yoldaşlarımız bizə belə xidmət edərdilər. Biz də evdə əyləşib, xanım kimi yaşayardıq, nəinki hazırda tutduğumuz mövqedə işləyərdik."

Daha sonra veriliş zamanı R.Qasımov Ulu öndər, Ümummilli lider Heydər Əliyevi nümunə göstərərək, insanların soyadlarının dəyişməsinə də toxunub. RF Dumasının əməkdaşı söyləyib ki, Heydər Əliyev Rusiyada ağır mübarizələrdən məhz öz soyadı ilə çıxıb:

"Hər zaman hər yerdə sevə-sevə ürəklə deyirəm ki, valideynlərim azərbaycanlıdır, mən də həmçinin... Dünyanın elə bir yeri yoxdur ki, orada azərbaycanlı olmasın. Amma elə insanlar var ki, başqa ölkəyə gedəndə soruşanda, deyir ki, mən azərbaycanlı deyiləm. Hətta soyadlarını dəyişmək üçün müraciət edənlər də olub. Guya ki, soyadlarını dəyişəndə onlar üçün Rusiyada yaşamaq daha rahat olacaq. Dəfələrlə onlara bildirmişəm ki, bizim böyük şəxsiyyətimiz Heydər Əliyev olub. O, sovet vaxtında belə soyadını dəyişməyib. Mən də öz soyadımı dəyişməmişəm. Halbuki bütün həyatım Rusiyada keçib. Soyadıma görə heç bir problem yaşamamışam."

# Qardaşıma məktub



Dostluq xoş və müqəddəs bir hissdir,bu isə hər kəsə nəsib olmur. Dostluq dostunu ondan daha çox düşünüb,qeydinə qalmaq deməkdir.Dostluq karvanına qoşulub irəliləmək üçün isə bəzi əxlaqi normaları ciddi qorumaq vacibdir.Yalnız bu zaman bizim dostluğumuz daimi və nəinki daimi,hətta əbədi olar və axirətdə belə davam edər.

**Dostluq nədir?**

Repetitia est mater studiorum-təkrar biliyin anasıdır. Belə bir latın deyiminə sadiq qalaraq əvvəlki məqalələrimin məzmunundakı bəzi şeyləri təkrar edirəm. Dostluq-insanların son dərəcə şəxsi xarakter daşıyan daha yaxın münasibətlərini əhatə edir. Yüksək səmimilik, heç bir şeyi gizlətməmək, bir yerdə olmaq tələbatı, ülfət bağladığı adamın sevinc və kədərini öz sevinc və kədəri kimi yaşamaq, dost üçün şəxsi mənafedən keçmək-bunların hamısı insanların dostluq münasibətlərini ifadə edən mühüm əlamətləridir. Dostluqda düzgünlük, təvazökarlıq, qarşılıqlı hörmət, güzəştə getməyi bacarmaq, möhkəm inam əsas şərtlərdəndir.

**Bizim neçə ən yaxın dostumuz ola bilər?**

İnsanlar hərdən sirrini paylaşmaq üçün bəzi insanlara ünvanlanır. Ünvan tutacağımız insanlardan biri də dostumuzdur, bəzən isə yeganəsi. Sirrimizi paylaşıb, dostluq kriteriyalarını qoruduğumuz insan bizim ən yaxın dostumuzdur. İnsan həyatında dostların sayı çox ola bilsə də, ən yaxın dost yalnız bir nəfər ola bilər!

**Dostluqda fayda nədir?**

Dostluq yalnız duyğu və hisslərlə sərhədlənməməli, gündəlik həyatda da özünü büruzə verməlidir.

Dostluq o zaman həqiqi olar ki, sən dostunun mövqeyini öz mövqeyindən üstün tutasan.Dostlar bilmədikləri bir şeyi bir-birilərinə öyrətməli və bu zaman mülayim və xoşsifətli olmalıdırlar.Dostunun problemi olduqda onun haqqında düşünməli və məsələni həll etməyin yollarını axtarmalısan.Dostun bir bədbəxt hadisə ilə rastlaşanda onun yanından ayrılmamalısan.Və təbii ki, dostluq o zaman kamilləşmiş olar ki, sən dostunun sevincini özününkü bilib, onu qədər sevinəsən.

**Dostluğumuzu necə saxlayaq?**

Dostluğumuzun əbədi olması üçün əvvəla, dost seçimində dəqiq və düzgün olmalıyıq.Həzrəti Məhəmməd (s) buyurur: "İnsan öz dostunun dinindədir. Beləliklə, hər biriniz kiminlə dostluq etməyinizin fərqində olun". Əlbəttə ki,biz hər zaman özümüzə uyğun olan insanı dost seçirik, amma bəzi xususiyyətlərini ya yaxşı bimirik və ya da ki,buna fikir vermirik.Və bu xüsusiyyətlər bəzən bizim dostluğumuzu aradan getməsinə səbəb olur. Bununla yanaşı dostluq zamanı bəzi məsafələr vacib olar və bu məsafələrin qorunmadığı halda münasibət mənasızlaşar. Sonda əziz oxucular müqəddəs olan dostluğumuzu əbədi edək və dostlarımızı sevək və onlarlarla hər zaman mülayim və xoşrəftar olaq.

**P.S.**

***Məqaləni qardaşım Cəbrailə həsr edirəm.***

**Xaləddin Bilalov**

## Tiflisdə gürcü dilində "Məshəti folkloru" adlı kitab nəşr olunub

***Tiflisdə gürcü dilində "Məshəti folkloru"nun I cildi nəşr olunub.***



Dekabrın 23-də Gürcüstan Mədəniyyət Nazirliyində kitabın təqdimatı keçirilib.

Məshəti türklərinin folklorundan bəhs edən kitab 915 səhifədən ibarətdir. Kitabda şair və aşıqların bədii yaradıcılığından olan nümunələri folklorşünas alim Avtandil Beridze toplayaraq tərtib edib.

Kitabda qeyd olunub ki, Məshəti türklərinin bədii yaradıcılığını, folklor nümunələrini 80-ci illərdə araşdıran ilk alimlərdən biri əslən Borçalıdan olan, Gürcüstan Ədəbiyyatşünaslıq Akademiyasının həqiqi üzvü, TDPU-nun Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri, mərhum professor Valeh Hacıyev olub. Nəşrdə həmçinin bildirilib ki, Məshəti türklərinin məskunlaşdığı Samtsxe-Cavaxeti bölgəsində Azərbaycan dilində sazla ifa edilən mahnılar çox olub.

## Dünya dillərinin təsir gücü:
## *Azərbaycan türkcəsi 247 dil arasında 83-cüdür*

Massaçusets Texnologiya İnstitutu (ABŞ) dünya dillərinin təsir dairəsinə dair təhqiqatın nəticələrini açıqlayıb. Transparency.az bildirir ki, təhqiqat qrupu 1000-ə yaxın dilin işlənməsi və qarşılıqlı əlaqəsini müqayisəli analiz edib, 247 dil son 30 ildə çap olunmuş 2 milyondan çox kitab, açıq ensiklopediya – "Vikipediya"da məqalə və müəlliflərin, "Tvitter"də sözlərin sayı və başqa parametrlər üzrə araşdırılıb.



Təhqiqatın nəticələrinə görə, Azərbaycan türkcəsində 27 milyon adam danışır. 30 ildə Azərbaycan dilindən 774 kitab tərcümə olunub. Azərbaycan dilinə çevrilmiş kitabların sayı 1658-dir. Azərbaycan bu baxımdan siyahıda 83-cü yerdə qərarlaşıb.

Təhqiqatın nəticələrində bildirilir ki, erməni dilində dünyada 6 milyon nəfər danışır. 30 ildə erməni dilindən 1100 kitab tərcümə olunub, erməni dilinə isə 2139 kitab çevrilib. Erməni dili bu parametr üzrə 58-cidir.

Gürcü dilində dünyada 4 milyon adam danışır. 30 ildə gürcü dilindən 1224 kitab tərcümə edilib. Gürcü dilinə çevrilən kitabların sayı 2176-dır.

Rus dilində 278 milyon nəfər danışır. Bu dildən 101395 kitab tərcümə olunub. 82 min 772 kitab isə ruscaya çevrilib.

Türkiyə tükcəsində 70 milyon adam danışır. Bu dildən 30 ildə 2658 kitab tərcümə edilib, 11874 kitab isə Türkiyə türkcəsinə çevrilib.

Fars dilində 107 milyon adam danışır. 30 ildə bu dildən 2837 kitab tərcümə olunub. Farscaya çevrilən kitabların sayı 11329-dur.

Dilin təsir dairəsinə görə ilk sırada ingilis dili durur. Dünyada 1 milyard 500 milyon adam ingiliscə danışır. Bu dildən 30 il ərzində 1 225 237 kitab tərcümə olunub. İngiliscəyə çevrilən kitabların sayı 146 294-dür.

Fransız dili təsir dairəsinə görə ikinci yerdə gəlir. Bu ildə 200 milyon adam danışır. 30 ildə bu dildən 216 624 kitab tərcümə olunub. Fransız dilinə tərcümə olunan kitabların sayı 238 463-dir.

185 milyon nəfərin danışdığı alman dili siyahıda üçüncüdür. 30 ildə bu dildən 201 718 kitab tərcümə olunub. Alman dilinə isə 292 124 kitab çevrilib.

# Bir həyat hekayəsi....

Bir neçə gün bundan öncə məni sarsıdan və yenidən ana itkisinin acısını yaşadan hadisə baş verdi. Anamın ölümündən sonra anamtək sarıldığım, sığındığım, dayağım yıxıldı, xalam anamtək əllərimdə haq dünyasına köç etdi. Hər kəs gec-tez yaxınlarını itirər, yalnız bu itki bizim üçün ağır oldu. Biz ziyalı, ağbirçək xanımımız Validəni itirdik. İllərdir müəllimə olub nəsillər yetişdirən, onları öz ziyası ilə aydınlatan ağbirçək xalamın maraqlı həyat hekayəsi ilə sizi tanış etmək istərdim. Oxucu sual verə bilər: bəs, nədən onun haqqında xüsusi məqalə dərc edilir? Cavab verirəm: xalam yaşının bir əsrə yaxın olduğuna baxmayaraq, hər zaman Gürcüstanda Azərbaycan dilində dərc olunan qəzet və jurnalların daimi oxucusu idi və özünün maraqlı həyat yolu haqqında hekayəni nə vaxtsa "RegionPress" və ya "Meydan" dərgisinin səhifələrində görmək istəyirdi. Yaşı haqqında danışmağı sevməzdi. Gənc yaşlarında gözəlliyi ilə seçilən Validə xanım, "Jurnala məqalə verəndə və ya mən vəfat edəndə mənim gənclik rəsmimi yerləşdirin"-deyərdi, qocalmış siması və itirilmiş gözəlliyi ilə razılaşa bilməzdi. Onun arzularından birini yerinə yetirərək, haqqında yazımı sizə təqdim edirəm.



Validə Ələsgər qızı Əliyeva, 1926 –cı (qeyri-rəsmi məlumatlara görə, doğum tarixi bir neçə il öncəyə təsadüf edir) ildə, Marneuli rayonunun, Kürtlər kəndində anadan olub. Ailələri 4 nəfərdən ibarət olubdur. Uşaqlarının təhsilə marağı olduğuna görə, Ələsgər bəy övladlarına təhsil vermək üçün usanmadan-yorulmadan çalışıb. Övladları arasında müəllimliyə meyil göstərən Validə təhsilini davam etdirmək üçün Tbilisi Müəllimlər Gimnaziyasına daxil olur. Bir gün gənc tələbə-qıza ailəsinin dostu, Borçalının klassik aşıqlarından olan Xındı Məmməd bəd xəbər gətirir. Ələsgər bəy şər-böhtan atılaraq Stalin repressiyasına məruz qalır və itkin düşür. Ailənin yükü anası Xədicə xanıma düşür, lakin Validə təhsilini davam etdirmək iddiası ilə Marneulidəki texniki peşə məktəbində təhsilini başa vurur. Kəndə müəllim olaraq qayıdan gənc Validə Baydar orta məktəbində ibtidai sinif müəllimi işləyir.

Validə xalam olduqca gözəl və əxlaqi ilə seçilən xanımlardan olub. Məktəbə tədris işləri üzrə direktor müavini təyin olunan gənc müəllim, Sarvanda tanınmış ailənin, Məşədi Əli kişinin oğlu olan Firuddin bəy Əliyev Validəyə aşıq olur. Qızın ailəsinin razılığı olmadığına görə, yeni il günü Validənin yeni həyatı başlayır – soyuq havada, şaxtada qarda, çətinliklə də olsa, Firuddin bəy Validəni evlənmək məqsədilə qaçırır. Ailə qurduqdan sonra Validə işini Marneuli 3 saylı orta məktəbdə davam etdirir. Onların evlilik həyatı sevgi, sayqı və xoşbəxtlik içində davam edib. Xalam bu hekayəni hər zaman sevgi dolu parıldayan gözləri və təbəssümlə danışardı, onun sevgisinin qəlbində hələ də yaşadığını görmək olurdu. Onların iki övladı olur. Həyat yoldaşı erkən yaşlarında dünyasını dəyişir. Lakin xalamın ürəyini parçalayan oğlunun erkən vəfatı oldu.

Övladlarına, nəvələrinə gözəl tərbiyə və əxlaq dərsləri keçən, təhsilə meyilləndirən Validə nəticələrinə də həmçinin tərbiyə və dəyərli nəsihətlər verərdi. Hər kəs onu çox sevər və hörmət edərdi. Bizim məsləhət yerimiz onun yanı idi. Nəticəsi Fəridi isə hər kəsdən çox sevərdi, onun xaricdə təhsil alması, uğurları ona ruh yüksəkliyi verərdi. Fəridin faciəli şəkildə vəfatını ona söyləyəmədik, hətta hər bir sayını maraqla gözlədiyi "RegionPress" qəzetini ondan gizlədik, çünki orada Fəridin ailəsinə başsağlığı dərc olunmuşdu. Hər kəs bağrına daş bağladı, o , "Fəridin toyunu görmək istəyirəm "-deyərdi. Fəridlə və oğlun Elxanla çox güman ki, cənnətdə görüşdün, xalam!

O, dünyasını dəyişən andan etibarən, sanki dünyamın bir yanı boşalıb, yetimləşib. Onun vəfatından ən çox üzülənlərdən biri mən oldum, çünki o , xalam idi, anamın yadigarı idi. Onun vəfatından kədərlənərək Tanrım mənə aşağıdakı misraları yazdırdı. Allah rəhmət etsin, Validə xanımımız!...

*Bir köklü ağacın kölgəsindəydim,*
*Uca bir qayanın zirvəsindəydim,*
*Tənha bir qəriblik qibləsindəydim,*
*Anasız dünyamı analı gördüm.*

*Mən yandım, içində yananım oldun,*
*Bütün qəmlərimi sananım oldun,*
*Bu yetim canıma həyanım oldun,*
*Anasız dünyamı analı gördüm!*

*Bir axşam çırağı söndü qəlbimdə,*
*Uğultu-fırtına qopdu beynimdə*
*Kənardan baxdım ki, özüm nə gündə,*
*Analı dünyamı anasız gördüm!*

**Mayquba Əliyeva**



**Gülməmməd Cəlilov**

## Azərbaycanın xalq şairi Zəlimxan Yaquba

Özünün hikmətilə, qeyrətinin hökmü ilə,
Şeirin nur çələngini şöləsiylə aldın ələ,
Zəngin söz xəzinəsi – bir gülüstan verdin elə,
Sevinnik, Vətən oğlu, qalaq-qalaq kitab ilə,
Nəzmin saf süfrəsilə əfsunladın hamımızı.

Ən uca zirvələrə ucaldıbsan Sən şeiri,
Sənətin möhtəşəmdi, əzəmətdi, göydə yeri,
Mülkünün sehri ilə izhar etdin tilsimləri,
Saysız elm adamının dünyacadı tərifləri,
Şeirin ləl, incisilə bəzədin dövranımızı.

Varmı söz sərrafı ki, sözdən abidə bitirə?
Şeiriyyət dünyamıza qüdrətli sərvət gətirə,
Bürüdün xoş, əfsunkar təravətli bir ətirə,
Heç kəsin hünəri yox, kəhkəşana əl yetirə,
Fələyin fövqünədək qoydun nərdivanımızı.

Şan-şöhrət bəxş elədin vətəninə, millətinə,
Şöhrətli şəxsiyyətlər səcdədədir qüdrətinə,
İdrak et, sözmü çatar, Türk oğlu, öz sərvətinə,
Bax, kimlər təzim edir bu misilsiz hikmətinə,
Zövq ilə təsvir etdin qızılgül, reyhanımızı.

Bir elə dəryasan ki, dalğalanıb coşursan Sən,
Nə yerdə qərar tutub, nə idraka sığarsan Sən,
Od tutub Günəş kimi, gərək olsa yanarsan Sən,
Sümüktək bərkiyərək, südtək qana dolarsan Sən...
Görəsən... Kim yazacaq “Zəlimxan” dastanımızı?..

Nə qədər inci seçdin, ey Türk oğlu, dəryalardan,
Füsunkar ətir gəlir nəzm evindən – Gülüstandan,
Hansı zövq əhli doyar bu nemətdən, bu dastandan,
Gülməmməd, niyyət edək şirin dillə tək Xudadan,
Əbədi yaşatsın O, doğma Zəlimxanımızı...



**Əli Qəmli (Balakişiyev)**

*(Dostum Zahid Nəsibova ithaf olunmuş şeirlər)*

## Çağır

Cərrah biçağına gedirsən, qardaş,
Dar gündə köməyə gələni çağır.
Dərdini söyləmə hər yetən yada,
Deməmiş dərdləri biləni çağır.

Min bir adı zikr eyləynən dilində,
İslam bayrağını saxla əlində,
Hörmət eylə, hörmət qazan elində,
Xeybərə Zülfüqar çalanı çağır.

Gen gündə dostunam deyənlər çoxdu,
Namərdi dindirmə, sözləri oxdu,
Bəndənin dəndəyə köməyi yoxdu,
Qolları Fəratda qalanı çağır.

Qəmli Əli, Haqqın adı dilimdən,
Düşərsə, ağrılar qalxar belimdən,
Gözü yaşlı Kərbəlanın çölündən,
Başı cidalarda gələni çağır.

## Saxlasın

Dostlar sizə qurban olum, sizi Allah saxlasın,
Quran, kitab kömək olsun, Bisimillah saxlasın,
“Haqq” kəlməsi dilinizdə əzbər olsun hər zaman,
Şahlar şahı şəfa versin, Rəsulullah saxlasın.

Haqqın min bir adı vardır, özü təkdi, vahiddi,
Könül sazımın şah pərdəsi, şirin dostum Zahiddi,
İnanmayan-inanmasın, Allah özü şahiddi,
Qardaş, səni pənahında Xəlilullah saxlasın.

Qəmli Əli, dost yolunda boran-qarı görmüşəm,
Sıldırımlı qayalarda köhlənimi yormuşam,
Yaxın dostun hər bir zaman xidmətində durmuşam,
Nəbilər köməyin olsun, Kələmullah saxlasın.



**İbrahim Mığırlı (Hacıyev)**

## Vətən deyilmi?

Gəzdiyim torpaq da,
Udduğum nəfəs də,
Saralan yarpaq da,
Puçurdakı, həvəs də,
Axı, vətən deyilmi?

Buluddan süzülən yağış,
Yağışın kişmiş qoxusu,
Budaqdan süzülən damcı,
Qaçıb torpağın yuxusu,
Axı, vətən deyilmi?

Məftillərdə qaranquş,
Öz kefində, nəşədə.
Ritmlə uçan arılar,
Qarışqa hər köşədə.
Axı vətən deyilmi?

Səssiz axan qara arx,
Göyərib qara daşlar.
Qat-qat olan el yolu,
Görüb neçə savaşlar.
Axı, vətən deyilmi?

Bayramlarda sevincdən,
Axanda göz yaşları,
Sükuta qərq olubdu,
Zəhmli baş daşları.
Axı vətən deyilmi?

Divar sərçə yuvası,
Kəsilibdi son ümid.
Dədədən miras daxma,
Mamır tutub kirəmid.
Axı vətən deyilmi?

Hara düşsə yönümüz,
Səsləyər vətən bizi.
Vətənin məhəbbəti,
Bəsləyər qəlbimizi.
Vətən unudularmı?

Axı, vətən deyilmi,
Unudulan o vətən?
Vətəni unudarmı,
Torpağını çox sevən?..

Vətən Ana, qeyrətdi,
Vətən dədə ocağı.
Bizim üçün açıqdı,
Yol gözləyən qucağı.

Ay İbrahim, vətənin,
Torpaq, daşına yol var.
Vətəni olmayan var,
Dolan başına, yalvar,
Torpaq, daşına yalvar.



**Yasin Oruc**

## Gərək

Allah yaradıbdı, Allah pay verib,
Gözəllik insanın özündə gərək.
Süni boyalardan gözəllik olmaz,
Gözəllik insanın üzündə gərək.

Pis fikirlər bir kənara atıla,
Min bir arzu, min diləyə çatıla.
Söhbətinə şəhdi-şəkər qatıla,
Gözəllik insanın sözündə gərək.

Şarlatan olmaya, ara qatmaya,
Qohuma, qonşuya təpik atmaya,
Deyirlər murdardır yalan, satmaya,
Gözəllik insanın düzündə gərək.

Zalım olub, Allah, evlər yıxmaya,
Söyüşdən dilinə tənə taxmaya,
Ona-buna əyri gözlə baxmaya,
Gözəllik insanın gözündə gərək.

Yasin deyir, gözü gözümə keçsə də,
Dağ qartalnı o zirvədə seçsə də,
Səksəni-doxsanı yaşı keçsə də,
Gözəllik insanın yüzündə gərək.

## Dünya

Saraylar dağıdıb, çox evlər yıxıb,
Veranxana qoyub çalası dünya,
Yarananın, yaşayanın əzəldən,
Olubdu başının bəlası dünya.

Dərd, azar artıbdı, keçibdi həddi,
Əzrail mələkdi, mələklər bədi,
Allah bəndəsinin günahı nədi,
Çoxmu qisasını alası dünya?

Amanat qonaqdı yaranan nə var,
Gəlişi nahaqdı, eyləyib güzar.
Vallah, bu dünyada yoxdu etibar,
Yasin gedərgidi qalası – dünya.

## Qoymayın

Hər qoşma yazana şair deməzlər,
Günahkar özüməm, lağa qoymayın,
Hayıf ki, qocaldım, Məşdibad kimi,
Xınanı saqqala, bığa qoymayın.

Çox axtardım, mən tapmadım mərdini,
Hər doğulan adamdımı, nərdimi?
Bu sinəmdə qövr eyləyən dərdimi,
Təpədən götürüb dağa qoymayın.

Lağlağıyla, necə deyim, aram var,
Kökdə, süddə qarışıq var, haram var,
Mən şair deyiləm, cızma-qaram var,
Yasinin adını çağa qoymayın.

## Getdi

Bu dünyadan köçənlərə,
Kim deyər ki, doyub getdi.
Fağır atam, yazıq anam,
Ürəyimi oyub getdi.

Fələk yazıb ölüm dağı,
Əzraildi zalım, yağı,
Necə deyim, qazandığı
Günahını yuyub getdi?

Gəlib çatdı axır zaman,
Ölüm haxdı, dərdi yaman,
Yasin deyir, yaxşı-yaman,
Öz adını qoyub getdi.



**Rüstəm Məmmədquluoğlu**

## Qalıb

Dünya, mənə qürbət oldun,
Uzaqlarda öyüm qalıb.
Obalarım, oymaqlarım,
Yerim qalıb, göyüm qalıb.

Qürbət eldə qızmır canım,
Qaynamayır yada qanım,
Ürəyimdə hey tufanım,
Fəryadım, harayım qalıb.

İsti-isti ocaqlarım,
Sərin-sərin bulaqlarım,
Allı-güllü yaylaqlarım,
Qurulmamış dəyəm qalıb.

Bəxtin qamçısı belimdə,
Bayatı, ağı dilimdə.
Uzaq düşübdür ölüm də,
Quru cismim, hayım qalıb.

Rüstəm, oldun xeyir-şərdən,
Düşdüm qiymətdən, dəyərdən.
Narazıyam göydən, yerdən,
Bu dünyada nəyim qalıb?

## Sözüm

Bir qasırğa, fırtınadır,
Həm sığallı mehdir sözüm.
Qanlı-qanlı göz yaşlarım,
Həm gül üstə şehdir sözüm.

Həm sevinc, həm qəm gətirir,
Həm tikan, həm gül bitirir,
Gördüyünü o götürür,
Bu gündür, sabahdır sözüm.

Vaxtın, vədənin səsidir,
Eşq, məhəbbət qönçəsidir,
Aqillərin dünyasıdır,
Nadana heyifdir sözüm.

Rüstəm, o sonsuz həvəsim,
Ali duyğum, ali hissim,
Məndən sonra mənim səsim,
Ruhdan gələn ruhdur sözüm.

## Nəyə baxım sevinim!

Sevinməli, de nə var ki, dünyada,
Bu dünyada nəyə baxım sevinim?
Çox arzular tarimar ki, dünyada,
Bu dünyada nəyə baxım sevinim?

Min bir dərdə hamilədir bu cahan,
Yanan evlər, ölən insan axan qan,
Dünya, sənin əlin qandır, yaxan qan,
Bu dünyada nəyə baxım sevinim?

Yad əllərdə Qarabağım qalıbdır,
Göycə adlı pir-ocağım qalıbdır,
Neçə-neçə aran, dağım qalıbdır,
Bu dünyada nəyə baxım sevinim?

Övlad dərdi, çörək dərdi, gün dərdi,
Qaraçıtək bizi hara göndərdi,
Qurtaran döy, Rüstəm, yazım mən dərdi,
Bu dünyada nəyə baxım sevinim?

Azərbaycanlıların Mədəniyyət Mərkəzi
Region PRESS
İctimai qəzet
№15 (190) 25.12.2015
Qəzet 2008-ci il martın 15-dən çıxır

**"Yeni il həm də hər bir kəsin ad günüdür".**
**Çarlz Lemb**




## 2016 - Qırmızı meymun ili bürclərə nə vəd edir?

2016-cı il odlu meymun ili olacaq. Bu ildə bürcləri nələr gözləyir? Hansı bürcü uğurlar, hansı bürcü uğursuzluqlar gözləyir? Bu haqda rusiyalı astroloq Vasilisa Volodina mətbuata açıqlama verib.

Meymun ili - 1920, 1932, 1944, 1956, 1968, 1980, 1992, 2004, 2016-cı illərdə doğulan insanların ilidir.

Bu insanlar ağıllıdırlar, cəlddirlər, ixtiraçıdırlar, orijinaldırlar. Ən mürəkkəb məsələni asanlıqla həll etməyi bacarırlar, lakin bununla bərabər etibarsız və ziddiyyətli insanlardırlar. Onlar hər nə oldusa, onu dərhal bilmək və öyrənmək istəyirlər, səbrsiz və hər şeylə maraqlanan olurlar. Ən yüngül maneə belə onların əhval-ruhiyyələrini korlaya bilir, hər hansı bir planlarını onların gözündən asanlıqla sala bilir. Onlardan bir çoxu qərarsız olurlar, bu xüsusiyyətləri ilə digərlərdən fərqlənirlər.

Düzgün qərar qəbul edirlər, sağlam düşüncəyə malik olurlar. Əgər onlara mane olan olmasa, onlar çox şöhrətli olarlar. Yüksək vəzifə sahibi olurlar.

Sizə gələcək həyat yoldaşı üçün uyğun olan illər- əjdaha və siçan. Ailə qurduqda bəzən uğurlu ola bilər-dovşan, qoyun, it, meymun. Ailə qurmaq üçün uğursuz olanlar - ilan, qaban, pələng

Meymunlar enerjili və dinamik heyvanlardı. Bu ildə kim aktivliyə can atsa, onun ili olacaq. Meymun keçidən daha dərin düşüncəli və hərəkətli olduğu üçün bir yerdə oturmaq lazım deyil. Mütləq aktiv hərəkət etmək lazımdır. Kim öz uğuru və karyerası üçün can atsa, qazanacaq.

## "Əli və Nino" filminin ABŞ-da premyerası olacaq

Gələn ilin yanvarında "Əli və Nino" filminin ABŞ-da premyerası keçiriləcək. Yazıçı Qurban Səidin dünya bestselleri- eyniadlı romanı əsasında çəkilmiş film yanvarın 21-dən 31-dək ABŞ-da keçiriləcək nüfuzlu "Sundance" beynəlxalq film festivalında nümayiş olunacaq.



Heydər Əliyev Fondundan bildiriblər ki, "Əli və Nino" filminin icraçı prodüseri Leyla Əliyeva, prodüseri Kris Tikyer, rejissoru "BAFTA" mükafatı sahibi Asif Kapadia, ssenari müəllifi isə "Academy Award" mükafatı laureatı Kristofer Hemptondur. Filmdə Adam Bakri, Mariya Valverde, Halit Ergenç, Mendi Petinkin, Konni Nilson, Rikkardo Samariko, Humayon Erşardi, Fəxrəddin Manafov, Əsad Bub, Numan Akar və digər məşhur aktyorlar çəkiliblər.

Qeyd edək ki, filmin çəkilişləri 2015-ci il fevralın 24-dən iyun ayınadək davam edib. Çəkilişlər Bakıda, tarixi İçərişəhər küçələrində və paytaxtın bir sıra digər məkanlarında, Qobustan və Xınalıqda aparılıb.

Filmin yaradıcı heyəti ilk gündən ssenariyə, səviyyəli komandaya, çəkiliş üçün gözəl məkanlara və güclü aktyor heyətinə əsaslanaraq ekran əsərinin böyük uğur qazanacağına əminliyini bildirmişdi.

Bu uğur ilk dəfə olaraq "Sundance" beynəlxalq film festivalında geniş ictimaiyyətə təqdim ediləcək. ABŞ-ın Yuta ştatının Park Siti şəhərində təşkil olunacaq festival 1985-ci ildən keçirilir. Bu il 31-ci dəfə təşkil ediləcək festivalda 16 bədii, 10 sənədli filmin, uşaqlar üçün 3 ekran işinin premyerası olacaq və 9 filmə baxış keçiriləcək.

# Dünya xalqlarının yeni il ənənələri

***Yeni il bayramını dünyanın ayrı-ayrı xalqları böyük həvəs və sevinclə qarşılayırlar. Növbəti təqvim ilinə keçidlə bağlı hər bir xalqın özünəməxsus adi və qeyri-adi ənənələri var və bu ənənələr çox qədim zamanlardan müasir dövrə kimi qorunub saxlanılıb.***

**Bolqarıstanda** Yeni il bayramını ev şəraitində yaxın qohumlarla birgə keçirməyə üstünlük verilir. Yeni təqvim ilinə bir neçə dəqiqə qalmış otağın işığı södürülür və bayramı qeyd edənlərə qaranlıq otaqda 3 dəqiqə öpüşmək imkanı verilir. Bu mərasimdən sonra ev sahibəsi tərəfindən bayram piroqu kəsilir. Piroq hazırlanarkən onun içərisinə xırda pul əskinazı qoyulur. Həmin əskinaz kimin payına düşürsə deməli o adam növbəti ildə varlanacaq. Bayram şənliyində ən çox qazanan isə ailənin ən kiçik üzvü olur. Ənənəyə görə ailənin bütün üzvləri ona bayram hədiyyəsi verməlidirlər.

**Ekvador** sakinlərinin Yeni il ənənələri də çox maraqlıdır. Əgər kimsə növbəti ildə daha çox səyahət etmək istəyirsə gecə saat 12-də böyük çamadanla yaşadığı binanın ətrafında bir neçə dövrə qaçmalıdır. Növbəti ildə daha çox pul qazanmaq istəyənlər bayram gecəsi sarı rəngdə alt paltarı geyinməlidir. Yeni ildə özünə xoşbəxt bir sevgi arzulayanların isə alt paltarı qırmızı rəngdə olmalıdır.

**İspaniyada** bayram şənlikləri böyük təntənə ilə keçirilir. İspanların ən əsas yeni il ənənəsi on iki üzüm giləsi ilə bağlıdır. Bu ölkənin sakinləri yeni il gecəsi yaşadıqları şəhərin mərkəzinə çıxır, yeni ilə 12 saniyə qalmış niyyət tuturlar, hər saniyə ərzində bir gilə üzüm yeyib tumlarını atırlar. Əsas məsələ saniyə ərzində bu prosesi vaxtında həyata keçirməkdir. Kim bunu bacarırsa, növbəti ildə onu uğurlar gözləyir. İspanlar üçün üzüm uğur, bolluq, xoşbəxtlik rəmzi sayılır.



**Danimarkada** Yeni ili tullanmaqla qarşılayırlar. Belə ki, gecə saat 12-də hamı stulun üstünə çıxır və tullanır. Beləliklə, onlar köhnə ildən təzə ilə tullanırlar. Bu ölkədə daha bir bayram ənənəsi yaxın dostların və qonşuların qapılarına boşqab çırpmaqdır. Kimin qapısının kandarında daha çox qab-qacaq qırıntıları varsa gələn il onun üçün düşərli və uğurlu olur.

**Yunanstanda** Yeni il bayramını qonaqlarla keçirməyi sevirlər. Ənənəyə görə qonaqlar təşrif buyurduqları ailələrə hədiyyələr gətirirlər. Bu hədiyyələrin arasında daş da olur. Daş nə qədər ağır olarsa həmin ailənin növbəti ildə var-dövləti də həmin ağırlıqda olar. Yunanların ənənəsinə görə bayram ziyafəti başa çatdıqdan sonra ailənin başçısı bir ədəd narı həyətdə yerə çırpır. Narın dənələri nə qədər çox səpələnərsə yeni il də bir o qədər uğurlu olar.

**Avstriyada** da Yeni il bayramı böyük təntənə və şənliklərlə qeyd olunur. Avstriyalılar öz ənənələrinə görə bayram günündə doğmalarına donuz bağışlayırlar. Ancaq canlı yox, oyuncaq donuz balası. Belə hədiyyə bu ölkədə var-dövlət rəmzi sayılır.

**Braziliyada** Yeni il şənliklikləri olduqca romantik keçirilir. Bayran günü braziliyalılar okean sahilində qum üzərində şamlar yandırırlar. Qadınlar isə uzun paltarlarda suya girib gül ləçəklərini okeana atırlar. Bayram şənliklərinə karnavallar xüsusi gözəllik qatır.

**Argentinada** Yeni il ərəfəsində evlərin qapısına gül çələngləri bağlanır. Bu onu göstərir ki, ailə Yeni il bayramına hazırdır. Bu ölkədə ilin son günündə iş yerlərində olan bütün artıq kağızları pəncərələrdən küçələrə atırlar. Yeni il bayramı argentinalılara baha başa gəlir. Ənənəyə görə bu ölkədə işləyən hər bir kəs ailə üzvlərinə və qohumlarına hədiyyələr almalıdırlar.

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi ***Əmiraslan Əlizamanlıya*** əzizi **Məhərrəm Pənah oğlu Poladovun** vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.
***Allah rəhmət eləsin!***




*Uşaq qışqıraraq deyir:*
*- Şaxta Baba, mən yeni ildə maşın istəyirəm*
*Anası:*
*- Oğlum, bərk qışqırma. Şaxta Baba ən asta səsi belə eşidir.*
*Uşaq:*
*- Amma atam eşitmir.*

* * *

*Yeni il.*
*Əsgər:*
*- Bu Şaxta baba hər şeyi səhv saldı.*
*- Niyə?*
*- Uşaq olanda ondan əsgər forması istədim, o isə indi gətirdi.*

*Təsisçi:* *Azərbaycanlıların Mədəniyyət Mərkəzi (AMM)*
*AMM-in sədri:* **Fazil HƏSƏNOV**
*Redaktor:* **Binnət ƏLİOĞLU**
*Məsul katib:* **İbrahimxəlil**
*Texniki redaktor:* **Əkrəm QƏHRƏMANOV**
*Kompyuter tərtibatçısı:* **Bahar MƏMMƏDOVA**
***Redaksiyanın ünvanı:***
Marneuli şəhəri, Çolokaşvili küç. 3
İndeks: 3000 Tel.: (+995 357) 22 29 29
Faks: (+995 357) 22 57 88
E-mail: regionpress@yahoo.com
Qəzetimizi Facebook səhifəmizdə də oxuya bilərsiniz:
https://www.facebook.com/regionpress.AMM
**Qeydiyyat şəhadətnaməsi: 09.09.2004. №43/5 z—9**
Fakta və ifadə olunan fikrə görə məsuliyyəti müəlliflər daşıyır.
Qəzet pulsuz yayımlanır.
**TİRAJ: 2000**